RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 138 (8731) ÇƏRŞƏNBƏ AXŞAMI, 6 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# “Dəmir yumruğ”un növbəti Zəfəri

## Salyan rayonunun Salyan-Neftçala magistralını Kür Qaraqaşlı, Beştalı, Cəngan, Xocalı və Ərəbqardaşbəyli kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Salyan-Neftçala magistralını 6 min nəfər əhalinin yaşadığı Kür Qaraqaşlı, Beştalı, Cəngan, Xocalı və Ərəbqardaşbəyli kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 6,8 milyon (altı milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 iyul 2021-ci il*

## Füzuli və Zəngilan rayonlarında basdırılan minalara dair xəritələr Azərbaycana təqdim edilib

Ermənistan işğal dövründə Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə təqribən 92 min minaya dair xəritələri iyulun 3-də Rusiya Federasiyasının təşəbbüsü ilə Azərbaycan tərəfinə təqdim edib.

Mina xəritələrinin alınması üzrə humanitar təşəbbüsün həyata keçirilməsində göstərdiyi vasitəçilik xidmətlərinə görə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin komandanı Rüstəm Muradova təşəkkürümüzü ifadə edirik.

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mina xəritələrinin əldə edilməsi on minlərlə vətəndaşımızın, o cümlədən minatəmizləyənlərin həyatını təhlükədən xilas edəcək və işğaldan azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyev tərəfindən əsası qoyulan tikinti və yenidənqurma layihələrini və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirəcək.

Humanist addım olaraq Azərbaycan tərəfi məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilmiş və təyin edilmiş cəza müddəti bitmiş 15 nəfər erməni əsilli şəxsi Ermənistana təhvil verib.

## Üç rayon üzrə 189 min minanı əks etdirən xəritə Azərbaycana təhvil verilib

Vətən müharibəsindəki Zəfər Azərbaycanın həm hərbi, həm də siyasi-diplomatik qələbəsi kimi yadda qaldı. Ordusu darmadağın olunan Ermənistanın Azərbaycanın şərtlərini qəbul etməkdən başqa yolu yox idi. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub və işğaldan azad olunmuş torpaqlarımızda genişmiqyaslı quruculuq işləri başlayıb.

### Minalanmış ərazilər Azərbaycan Ordusunun qarşısını ala bilmədi

Azərbaycan dövlətinin maliyyə-iqtisadi imkanları Qarabağın dirçəlişi prosesini daha sürətlə aparmağa imkan verir. Həm də bu prosesdə iştirak etmək istəyən xarici tərəfdaşlarımızın sayı kifayət qədər çoxdur. Bu məsələdə ləngiməyə səbəb olan yeganə problem Azərbaycan Silahlı Qüvvələrinin əzici üstünlüyü qarşısında geri çəkilərkən Ermənistan ordusu tərəfindən ərazilərin minalanmasıdır.

Mina torpağın altında gizlədilən və piyadalar, nəqliyyat vasitələri, ağır hərbi texnikalar üzərindən keçdiyi zaman partlayaraq onları öldürmək, sıradan çıxarmaq və ya məhv etmək üçün hazırlanmış partlayıcı qurğudur. Hədəf qurğunun üzərindən keçərkən təzyiq səbəbindən avtomatik partlayır. Hədəflər minanın birbaşa partlamasından, partlayış nəticəsində ətrafa saçılan qəlpələrdən və ya hər ikisindən zərər görə bilərlər.

Xatırladaq ki, Ermənistan hələ işğal dövründə bütün cəbhə zonasını böyük ölçüdə minalamışdı. Günlərin birində Azərbaycan Ordusunun hücum edəcəyini dərk edən işğalçıların yaratdığı bir neçə mərhələli müdafiə mövqelərinin müəyyən hissəsini minalanmış ərazi təşkil edirdi. Bu ərazilərə kütləvi şəkildə piyada və tank əleyhinə minalar basdırılmışdı.

Bakıdakı Hərbi Qənimətlər Parkının ərazisində xüsusi yaradılmış pavilyonda Ermənistanın avtomobil və zirehli texnikaları məhv etmək və hərəkətini əngəlləmək, habelə piyadalar əleyhinə yaratdığı mina sahələrinin formasını görmək mümkündür. Düşmən 30 ilə yaxın müddətdə cəbhə xəttində neçə mərhələdən ibarət gücləndirilmiş müdafiə istehkamları yaratmışdı. Lakin onların heç biri Azərbaycan Ordusunun hücumlarını əngəlləyə bilmədi və döyüşən bölmələrimiz ilk saatlardan düşmənin ön cəbhə xəttindəki bütün səngərlərini ələ keçirmişdilər.

***Ardı 3-cü səh.***

## Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları Qarabağın inkişaf planına uyğun inşa edilir

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Ermənistan silahlı qüvvələrinin işğalından azad edilmiş ərazilərdə yol infrastrukturunun yenidən qurulması istiqamətində genişmiqyaslı tikinti işləri həyata keçirilir.

İşğaldan azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən biri Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarıdır.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 66 kilometr təşkil edəcək. Sözügedən yolun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər 17 kilometr uzunluğunda yeni avtomobil yolunun da inşası nəzərdə tutulub. Layihələndirilən yolların ümumi uzunluğu 83 kilometrdir.

Dövlət başçısının tapşırığına əsasən, Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun olaraq inşa edilir. Hazırda Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun Xudafərin su anbarı və Xanlıq yaşayış məntəqəsi arasında olan hissəsində tikinti işləri davam etdirilir.

***Ardı 5-ci səh.***



## Kapital qoyuluşunun əsas ünvanı - qeyri-neft sektoru

### Xarici investorlar pandemiya dövründə də Azərbaycan iqtisadiyyatına sərmayə yatırmaqdan ehtiyat etmirlər

Dünya iqtisadiyyatının inkişafını təmin edən bir neçə önəmli faktor var. Onlardan birincisi iqtisadiyyatın fasiləsiz investisiyalaşdırılmasıdır. Əbəs yerə demirlər ki, sərmayə qoyuluşu iqtisadi tərəqqidə xəstə orqanizm üçün təzə qanın lazım olduğu qədər vacibdir.

Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra bu istiqamətdə mühüm addımlar atdı. Ölkəmizdə xarici və daxili sərmayənin qorunması haqqında mükəmməl qanunvericilik bazası yaradıldı.

Bununla yanaşı, xarici investisiyaların təşviqi üçün bir sıra güzəştlər tətbiq olundu. Həmin proses indi də davam edir.

Xarici sərmayənin ölkə iqtisadiyyatına cəlb edilməsi istiqamətində görülən işlər beynəlxalq təşkilatlar tərəfindən də dəyərincə qiymətləndirilir. Onlar bu barədə apardıqları hesabatlarında qazandığımız nəticələrin yüksək olduğunu qeyd edirlər. Bu yerdə bildirək ki, həmin hesabatlar həm də xarici kapitalın ölkəmizə olan güvəninin göstəricisidir.

***Ardı 5-ci səh.***

◆ **MƏTBUAT MÖVZUSUNDA**

## Heç kəs öz ayranına turş demirsə...

### ...Bu, gerçəkdə turş və dadsız ayranın olmadığına dəlalət etmir



Əvvəlcə, yazının sərlövhəsinə münasibətimi bildirim.

Bəli, heç kəs öz ayranına turş demir!

Amma gerçək həyatda istənilən qədər turş və dadsız ayran var!

Həm də alıcı (bu halda oxucu) ayranı alıb onun dadsız olduğunu görəndə ikinci dəfə almır!

*Belədə isə satılmayan ayran qalaraq turşuyur.*

*İndi istəyirsən onun adını ayran yox, sayt, qəzet, telekanal, nə bilim, nə qoy!*

**Fakt odur ki, heç zaman nöqsanı özümüzdə görmürük!**

**Özümüzü ideal sayaraq təqsirkarı kənarda axtarırıq!**

❖ ❖ ❖

Azərbaycanda həqiqi mətbuat və söz azadlığı var!

Bunu hər birimiz gözəl bilirik və gündəlik həyatımızda da şahidik!

*Əvvəla,* mətbuata senzura nəzarəti hələ çox-çox illər qabaq - 6 avqust 1998-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən ləğv edilib!

*İkincisi,* mətbuatda deyilən sözə, söylənilən fikrə (təhqirə demirəm, ha!) görə heç kəsə cəza verilmir!

*Üçüncüsü,* jurnalist istədiyi mövzuda, istədiyi məsələ barədə, istədiyi obyektdən yazmaqda tam sərbəstdir, gördüyü nöqsanları da qorxmadan, çəkinmədən tənqid edə bilir.

*Dördüncüsü,* hər bir Azərbaycan vətəndaşı istədiyi vaxt qəzet aça, sayt yarada bilir, bunu üçün Ədliyyə Nazirliyinə ərizə ilə müraciət etmək və bir həftədən sonra işə başlamaq lazımdır.

Bütün bürokratik əngəllər çoxdan aradan qaldırılıb.

*Beşincisi,* əgər ölkə əhalisinin 85 faizindən çoxu internet istifadəçisidirsə və sosial şəbəkədə hüdudsuz söz azadlığı (hətta hərdən söz azğınlığı) baş alıb gedirsə, bunun özü də deyilənlərə ən yaxşı sübutdur!

***Ardı 3-cü səh.***

◆ **Yay mövsümünün problemləri**

## Buzlu zəhər

### Bazardakı keyfiyyətsiz dondurmalar alıcıların sağlamlığı üçün ciddi təhlükədir

Havaların kəskin isinməsi insanların dondurmaya olan tələbatını artırır. İsti yay günlərində dadlı bir desertlə sərinləmək istəyən insanların çoxu sərfəli qiymətlə keyfiyyətli dondurma yemək istəyir.

Hazırda həm xarici, həm də yerli istehsal hesabına dondurma bazarında çeşid kifayət qədər çox olduğundan alıcılar dondurma axtarmaqda çətinlik çəkmirlər. Çeşid çox olduğu qədər qiymətləri də fərqli olan dondurmaların ən ucuzu alıcıya 20 qəpiyə təklif edilir. Lakin əsas məsələ seçdiyimiz bu desertlərin tərkibi ilə bağlıdır. Belə ki, tərkibindəki inqrediyentlərin aşağı keyfiyyətdə olması, məhsulun düzgün saxlanılmaması dondurmaları keyfiyyətsiz və təhlükəli məhsula çevirən ən əsas səbəblərdir ki, bu da həyat üçün risk deməkdir.

***Ardı 4-cü səh.***

# Prezidentin köməkçisi Məhərrəm Əliyev Naxçıvanda qoşun hissələrinin döyüş hazırlığının vəziyyəti ilə tanış olub






Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev iyunun 29-dan iyulun 2-dək Naxçıvan Muxtar Respublikasına səfər edib.

AZƏRTAC xəbər verir ki, general-polkovnik Məhərrəm Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək abidənin önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad edib. Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Ümummilli Liderin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ilə keçirilmiş görüşdə muxtar respublikada daimi dislokasiya olunmuş ordu, birləşmə və hərbi hissələrin maddi-texniki təminatı, şəxsi heyətin peşəkarlığının artırılması, xidməti-döyüş və məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə geniş fikir mübadiləsi aparılıb.

Əlahiddə Ümumqoşun Ordusu, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Əlahiddə Naxçıvan Briqadası və Dövlət Sərhəd Xidmətinin "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, qoşun və birləşmə rəhbərlərinin iştirakı ilə xidməti müşavirə keçirilib və məruzələr dinlənilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tələb və tövsiyələrinə uyğun olaraq, Silahlı Qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi, daha effektiv silah və döyüş texnikaları ilə təminatı, hərbi qurumlar arasında qarşılıqlı əlaqələrin daha da təkmilləşdirilməsi, beynəlxalq təlimlərdə iştirakın təmin olunması, hərbi qulluqçuların hüquqlarının müdafiəsi və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində qarşıda duran tapşırıqlar diqqətə çatdırılıb.

Səfər çərçivəsində hərbi hissələrin şəxsi heyəti ilə görüşlər keçirilib, qərargah binalarına, əsgər yataqxanalarına, tibb məntəqələri və digər hərbi obyektlərə, həmçinin bölmələrin silahlanmasında olan zirehli döyüş texnikasına, aviasiya eskadrilyasına və hərbi təyinatlı vasitələrə baxış keçirilib. Xidmətdə fərqlənən hərbi qulluqçulara növbəti rütbələr verilib və hədiyyələr təqdim olunub.

# Milli Məclisin İntizam komissiyasının yeni Əsasnaməsi hazırlanıb

İyulun 5-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və İntizam komissiyasının videokonfrans formatında birgə iclası keçirilib. İclası açan Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, müzakirəyə "Azərbaycan Respublikası Milli Məclisinin İntizam komissiyasının Əsasnaməsinin təsdiq edilməsi haqqında" məsələ çıxarılıb.



Əli Hüseynli İntizam komissiyasının Əsasnaməsi haqqında ümumi məlumat verib. Qeyd edib ki, Milli Məclisin İntizam komissiyasının 9 maddədən ibarət Əsasnaməsi İntizam komissiyasının təşkili qaydasını, səlahiyyətlərini, iş qaydasını, İntizam komissiyası üzvlərinin, həmçinin komissiyada barəsində araşdırma aparılan deputatın hüquqlarını və vəzifələrini müəyyən edir. Bildirilib ki, yeni Əsasnamə mövcud qanunvericiliyə uyğun hazırlanıb. Xüsusən də İntizam komissiyası tərəfindən müraciətlərə, təqdimatlara və məlumatlara baxılması qaydası və müddətləri dəqiq müəyyən edilib.

İclasda iştirak edən Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov bildirib ki, yeni Əsasnamədə təsbit edilən dəyişikliklər komissiyanın fəaliyyətinin daha da təkmilləşdirilməsinə yönəlib.

İclasda çıxış edən Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Qüdrət Həsənquliyev, komitə üzvləri Erkin Qədirli, Vüqar İskəndərov, İntizam komissiyasının sədr müavini Fəzail Ağamalı, komissiyanın üzvü Məlahət İbrahimqızı Əsasnamə ilə bağlı fikirlərini bildiriblər, suallarını səsləndiriblər.

Müzakirələrin sonunda Milli Məclisin İntizam komissiyasının Əsasnaməsi baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Türkiyənin Ədliyyə Akademiyası arasında anlaşma memorandumu imzalanıb

İyulun 5-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Mühittin Özdemirin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə baş prokuror tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini vurğulayaraq, bu əlaqələrin türk xalqının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamları ilə ifadə edildiyini diqqətə çatdırıb. Baş prokuror hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, yürütdükləri uzaqgörən xarici siyasət, həmçinin tarixi əhəmiyyətli Şuşa Bəyannaməsinin imzalanması nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulayıb.

Kamran Əliyev qeyd edib ki, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqı ölkəmizə siyasi və mənəvi dəstəklərini nümayiş etdirib. Həmçinin işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işlərində türk şirkətlərinin fəal iştirakı iki ölkə arasında sıx münasibətlərin təzahürüdür.

Baş prokuror bütün sahələrdə olduğu kimi, ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında da əməkdaşlığın yüksək səviyyədə olduğunu diqqətə çatdıraraq, hüquqi əməkdaşlıq, ekstradisiya, prokurorların təlimi və digər mühüm sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Qonaqlara həmçinin Azərbaycan Respublikasının Baş Prokuroru yanında Elmi-Məsləhət Şurasının yaradılması, onun fəaliyyət istiqamətləri, tərkibi, eləcə də Şuranın nəzdində prokurorluq, digər hüquq mühafizə orqanları əməkdaşları, dövlət qulluqçuları, özəl sektorda çalışan şəxslər, tələbələr üçün korrupsiyaya qarşı mübarizə, etik dilemmalar, onların həlli yolları, düzgün davranış və s. məsələlərlə bağlı tədris və peşə hazırlığının həyata keçirilməsi məqsədilə Antikorrupsiya Təlim Mərkəzinin təsis edilməsi barədə məlumat verilib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Mühittin Özdemir ölkəmizi və xalqımızı qazanılmış qələbə münasibətilə təbrik edib, Vətən uğrunda canlarından keçmiş şəhidlərə rəhmət diləyib.

Mühittin Özdemir təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib.

Görüş çərçivəsində ölkələrimiz arasında beynəlxalq hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Türkiyə Ədliyyə Akademiyası arasında "Hüquq sahəsində tədris və tədqiqat fəaliyyəti ilə prokuror və prokuror vəzifəsinə namizədlərin təliminə yönəlmiş əməkdaşlıq haqqında" anlaşma memorandumu imzalanıb.

Anlaşma memorandumunun imzalanmasından sonra nümayəndə heyəti Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar, eyni zamanda Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyadıb.

Daha sonra qonaqlar Baş Prokurorluğun yeni istifadəyə verilmiş, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş inzibati binasında yaradılmış şəraitlə tanış olaraq, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin fəaliyyəti ilə yaxından maraqlanıb, həmçinin yeni inzibati binada yaradılmış 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət ediblər.

Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Mühittin Özdemirin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri davam edir.

# ADA Universiteti ilə Qırğızıstanın Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb




ADA Universiteti ilə Qırğızıstan Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.



Universitetdən AZƏRTAC-a bildirilib ki, memorandumu ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev və Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev imzalayıblar.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığa toxunan rektor H.Paşayev Azərbaycan və Qırğızıstan arasında əlaqələrin inkişafından məmnun olduğunu bildirərək, imzalanan sənədlə təhsil sahəsində də əlaqələrin genişlənəcəyinə əminliyini ifadə edib.

Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev Azərbaycanın regionda dinamik templə inkişaf etdiyini və hər dəfə ölkəyə səfər edən zaman bu inkişafın şahidi olduğunu bildirib.

Sənədə əsasən, hər iki ali təhsil qurumu birgə tədqiqatlar aparacaq, məlumat və təcrübə mübadiləsi həyata keçirəcək. Sənəddə peşəkar kadrların hazırlanması üzrə əməkdaşlıq əlaqələrinin qurulması da nəzərdə tutulub.

Bununla yanaşı, tərəflər xarici siyasət, beynəlxalq əlaqələr və digər müvafiq sahələr üzrə diplomat və mütəxəssislərin yetişdirilməsi istiqamətində təlim kursları təşkil edəcəklər.

Qeyd edək ki, memorandum beş il ərzində qüvvədə olacaq.

# Azərbaycan ilə Türkiyə arasında hüquqi əlaqələr müttəfiqlik münasibətlərinə uyğun inkişaf edir

Dost və qardaş Azərbaycanın və Türkiyənin Ədliyyə nazirlikləri sıx əməkdaşlıq edir, nümayəndə heyətlərinin müntəzəm səfərləri və birgə tədbirləri keçirilir, səmərəli hüquqi yardım göstərilir.

İki ölkənin ədliyyə orqanları arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə Türkiyə Ədliyyə Akademiyasının rektoru Muhittin Özdemir rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlib.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində qonaqlar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə gül dəstələri qoyublar.

Həmçinin Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarını və şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsi ziyarət edilib.

Sonra nümayəndə heyəti Ədliyyə Akademiyasında olub, qarşılıqlı fəaliyyətə dair müzakirələr aparılıb, hüquqşünasların təliminə, tədris proqramlarına, müasir İKT-lər tətbiq olunmaqla videokonfrans formatında distant treninqin təşkilinə, o cümlədən Elektron Tədris Platformasına dair təqdimatlar keçirilib.

Tədbirdən sonra iki ölkənin Ədliyyə akademiyaları arasında hakimlər, prokurorlar və hakimliyə namizədlərin tədrisi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Memorandum hüquqşünasların ixtisaslarının artırılmasını, birgə tədris proqramlarının həyata keçirilməsini, simpozium, təlim, seminar və digər tədris tədbirlərinin və təcrübi səfərlərin təşkilini, onların pandemiya şəraitinə uyğun bilavasitə və ya videokonfrans formatında keçirilməsini nəzərdə tutur.

İyulun 5-də nümayəndə heyəti ilə ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun görüşü keçirilib.

Ölkələrimiz arasında əlaqələrin ən yüksək səviyyədə olduğunu bildirən nazir dostluq və qardaşlıq münasibətlərimizin Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipi ilə uğurla inkişaf etdiyini, bu əlaqələrin möhkəmləndirilməsində Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın xüsusi rolunu vurğulayıb. Nazir 44 günlük Vətən müharibəsində Türkiyə Prezidenti başda olmaqla türk xalqının, qardaş ölkənin bütün yüksək rəsmi şəxslərinin, o cümlədən ədliyyə naziri Abdulhamit Gülün mənəvi və siyasi dəstəyini qeyd edib.

F.Məmmədov ötən ay Türkiyə Prezidentinin Şuşaya səfərini, Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi ilə əlaqələrimizin müttəfiqlik səviyyəsinə yüksəldiyini vurğulayıb, müstəsna siyasi və tarixi əhəmiyyətə malik olan bu mühüm sənədin müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar açdığını söyləyib. Bildirib ki, Şuşa Bəyannaməsi rəhbər tutularaq yenicə imzalanmış Anlaşma Memorandumu ədliyyə sahəsində ilk sənəd olmaqla əlaqələrimizin dərinləşməsinə xidmət edir.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən qonaq özünü doğma Vətənindəki kimi hiss etdiyini, qədim köklərə malik olan xalqlarımızın bir-biri ilə yaxşı anlaşdığını və dəstəklədiyini qeyd edib, Azərbaycan-Türkiyə əlaqələrinin Şuşa Bəyannaməsi ilə bir daha tarixi zirvəyə çatdığını vurğulayıb. M.Özdemir Vətən müharibəsində Azərbaycanın Qələbəsindən çox şad olduğunu bildirərək iki qardaş ölkənin birlikdə zəfərlərə bundan sonra da imza atacağına əminliyini söyləyib.

Görüşdə məhkəmə-hüquq islahatları barədə fikir mübadiləsi aparılıb, Azərbaycanda hakimlərin şəffaf seçiminə toxunularaq, onların tədrisində qardaş ölkənin Ədliyyə Akademiyasının dəstəyi, o cümlədən hakimliyə namizədlərin Türkiyədə təlimlər keçməsi məmnunluqla qeyd edilib. Qonaq hüquqi əlaqələrə böyük önəm verərək bu sahədə daha sıx qarşılıqlı fəaliyyət göstərməyə hazır olduğunu bildirib, yaxşı təcrübələrin mübadiləsinin hər iki tərəf üçün faydasını vurğulayıb.

Qonaqlar nazirlikdə Ədliyyə Tarixi Muzeyi, həmçinin Azərbaycan-Türkiyə münasibətlərinə həsr edilmiş xüsusi stendlərlə tanış olublar.

Tədbirdə Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı iştirak edib.

Səfər çərçivəsində həmçinin qonaqların rəsmi görüşləri, müasir məhkəmə infrastrukturu, o cümlədən yeni istifadəyə verilmiş Suraxanı Rayon Məhkəməsinin müasir binası və elektron məhkəmə sistemi, Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzinin fəaliyyəti, eyni zamanda Heydər Əliyev Mərkəzi, Vətən müharibəsində xalqımızın böyük Qələbəsinin və ordumuzun qəhrəmanlığının təcəssümü olan Hərbi Qənimətlər Parkı, eləcə də paytaxtın mədəni və tarixi abidələri ilə tanışlığı nəzərdə tutulur.

# Azərbaycan və Türkmənistan xarici işlər nazirləri arasında telefon danışığı olub

İyulun 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkmənistanın xarici işlər naziri Rəşid Meredov arasında telefon danışığı olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon söhbəti zamanı nazirlər iki ölkə arasındakı əməkdaşlıq gündəliyi üzrə, o cümlədən ənənəvi dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi ilə bağlı aktual məsələlərə dair fikir mübadiləsi aparıblar. Nazirlər həmçinin regional təhlükəsizlik, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Cari il keçirilməsi nəzərdə tutulan Azərbaycan, Türkmənistan, Türkiyə yüksəksəviyyəli görüşünün əhəmiyyəti vurğulanıb.

Telefon danışığı zamanı habelə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

◆ MƏTBUAT MÖVZUSUNDA

# Heç kəs öz ayranına turş demirsə...

## ...Bu, gerçəkdə turş və dadsız ayranın olmadığına dəlalət etmir

*Əvvəli 1-ci səh.*

*Ən nəhayət,* dövlət başçısı cənab İlham Əliyev jurnalistlərin əsl dostudur və biz jurnalistlər onu bu ada dəfələrlə, gizli səsvermə yolu ilə layiq bilmişik.

**Özü də Prezidentimizin mətbuat və söz azadlığına, jurnalistlərə verdiyi dəstəyə, göstərdiyi qayğısına görə!**

**Çünki cənab İlham Əliyev mətbuata və mətbuat işçilərinə dünyanın heç yerində olmayan, məhz Azərbaycana xas xüsusi qayğı və diqqətlə yanaşır!**

❖ ❖ ❖

Demokratik dünya KİV-lərin dövlət tərəfindən maliyyələşdirilməsini qəbul etmir!

Bu halda belə hesab edirlər ki, dövlətdən vəsait alan KİV-lər sərbəst olmurlar, dövlətdən asılı vəziyyətə düşürlər və obyektivliklərinə xələl gəlir.

**Dövlət başçısı cənab İlham Əliyev beynəlxalq aləmin müəyyən etdiyi bu prinsipə xələl gətirmədən Azərbaycanda mətbuat və söz azadlığına dövlət qayğısının yeni, orijinal və səmərəli formasını yaratdı!**

Bunun üçün əvvəlcə, KİV-in İnkişafına Dövlət Dəstəyi Konsepsiyası hazırlandı.

Sonra bu Konsepsiyanı reallaşdıracaq yeni qurum - KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı.

*Konsepsiyanın mahiyyətində media subyektinin - qəzetin, saytın, informasiya agentliyinin yaradıcılıq işinə qarışmadan, onlara iradə diktə etmədən dövlətimizin milli maraqlardan irəli gələn bir sıra mövzuların mütəmadi şəkildə mətbuatda işıqlandırılmasını görmək istəyi dayanır.*

Bu mövzu və məsələlər on doqquz istiqamətdə ümumiləşdirilib! (Xırdalamıram, arzu edənlər sənədlə tanış ola bilərlər).

Seçilmiş mövzu üzrə qəzet, sayt layihə hazırlayır və onun öz layihəsini gerçəkləşdirməsinə dövlət qrant şəkildə yardım göstərir.

Beləliklə, Azərbaycanda azad mətbuatla dövlətin marağı uzlaşmış olur.

Bu funksiyanı əvvəlcə KİV DDF yerinə yetirirdi.

İndi isə aşkara çıxarılan nöqsanları aradan qaldırmaq, ölkədə mətbuat və söz azadlığına qayğını yeni, daha yüksək müstəvidə davam etdirmək, jurnalistlərin sosial durumunu yüksəltmək üçün KİV DDF ləğv edilərək əvəzində MEDİA İnkişaf Ağentliyi (MEDİA İA) yaradılıb.

*COVİD-19-un davam etdiyi, uzun müddət sərt qapanma şəraitində işləməyimiz təkcə bizim yox, MEDİA-nın da öz imkanlarından daha geniş, daha rəngarəng formada istifadə etməyə, daha fəal çalışmağa müəyyən mənfi təsirini göstərib.*

*Amma bütün çətinliklərə baxmayaraq, bu yeni qurum son dövrlərdəki nisbi boşalmadan istifadə edərək fəallığını xeyli artırıb, təşkilatlanma mərhələsini arxada qoyaraq keçirdiyi müsabiqələrin ilk nəticələrini elan edib.*

**Böyük zəhmət bahasına başa gələn bu işi "oyundankənar" vəziyyətdə qalanlar gözdənsalma kampaniyasına başlayıblar!**

Narazıların səsi razıların minnətdarlıq sözlərini az qala eşidilməz edir!

Anlamaq olmur!

Əgər hər kəs öz işinə özü qiymət verəcəkdisə, onda bu qurum, münsiflər heyəti, təcrübəli media ekspertləri nəyə gərək idi?!

Mən də qəbul edirəm ki, ideal qiymətləndirmə yoxdur!

Hətta açıq söyləyirəm, dəfələrlə Mətbuat Şurasının "Qara sıyahı"sına düşən "reket qəzet"lərdən



birinin saytının qaliblər siyahısında olması da birmənalı qarşılanmır.

Görüşəndə həmkarlarıma təcrübəli jurnalist kimi iradımı söyləyəcəm.

Qəbul etsələr də, etməsələr də!

**Ancaq biz niyə öz fikrimizi, dediyimizi mütləq həqiqət hesab edərək hamıya qəbul etdirməyə çalışmalıyıq?!**

**Bu nə mövqe, bu nə hikkədir!**

*Tutaq ki, müsabiqə ideal şəkildə baş tutmayıb!*

*Bəyəm sizin saytlar, sizin qəzetlər, nəzərdən keçirilən yazılarınız idealdır!*

Yenə ayran məsələsi yada düşür!

Əvvəlcə, dövlətə öz büdcəsindən vəsait ayırdığına, mətbuata qayğını daim diqqətdə saxladığına görə bir minnətdarlıq edərlər!

Sonra bu işi təşkil edənlərə, zəhmət çəkib hasilə gətirənlərə bir "sağ ol" deyərlər!

Ən nəhayət, irad və narazılıq bildirmənin də bir həddi, qaydası olar!

*Yerindən qalxan özünü "peşəkar jurnalist" hesab edir!*

*Hərə öz saytını, qəzetini göylərə qaldırır, müxtəlif "sübutlarla" "ən yaxşısı" olduğunu söyləyir və hətta "əsaslandırmağa" çalışır.*

*Hərə öz yazdığının "şedevr" olması iddiasındadır!*

Kimin özü haqqında nə düşünməsindən asılı olmayaraq, bu sahədə illərlə külüng çalmış həqiqi jurnalistlər kimin kim olduğunu, adi yazı ilə "şedevr"i çox yaxşı və asanlıqla ayırd edirlər!

❖ ❖ ❖

Bu gün özünü "peşəkar jurnalist" sayanların əksəriyyəti jurnalistikada peşəkarlıq nədir və o səviyyəyə yüksəlməyin yolları barədə aydın təsəvvürə belə malik deyildir. Belələrinin "peşəkarlığı" yazılarına mahiyyətdənkənar, "sensasiyalı" sərlövhələr qoymaq, müsahibinin dilindən "cilalanmamış" bir söz tutaraq yazını onun üzərində qurmaqla boş hay-küy yaratmaq, qurdalayaraq sözdən söz çıxarmaq və sözün çürüyünü çıxarmaqdan ibarətdir!

**Müsahibinə hörmət qoymayan, onun ürək qızdıraraq dediyi sözün başına ip salıb hallandıran, yeganə məqsədi "stəkanda fırtına" yaratmaq olan qələm yiyəsinə necə "peşəkar jurnalist" demək olar?**

Lap qısa desək:

Jurnalistika ictimai - siyasi fəaliyyət sahəsidir.

Bu sahə ilə məşğul olanlar, adətən, jurnalistlər olurlar.

*"Jurnalist" adı isə bu sahədə müvafiq təhsil alanlara, onun nəzəriyyəsi və praktikası ilə məşğul olub müvafiq biliyə sahiblənənlərə, həm də Dövlət İmtahan Komissiyası sədrinin imzası ilə ali təhsil müəssisəsi tərəfindən diplom şəklində təsdiqlənmiş qaydada verilir.*

**Redaksiyadaxili əmrlə jurnalist adı verilmir, vəzifə verilir!**

**Mirzə Cəlil demişkən, əgər kimsə özü-özünə jurnalist deyirsə, bu heç də onun jurnalistliyinə dəlalət eləmir!**

Kimsə, haradasa işə qəbul edilirsə, bu zaman ona "jurnalist vəzifəsinə götürülmək barədə" əmr və ad verilə bilməz! (Hətta verilsə belə, əsassızdır).

Başqa sahədən jurnalistikaya gələnlər müxbir, şöbə müdiri, redaktor və s. vəzifələrdə işləyə bilərlər.

"Jurnalist vəzifəsi" anlayışı isə yoxdur!

**İkinci məqam, kimsə saytının, qəzetinin tərifini göylərə qaldırarkən əvvəlcə bir tirajına, gündəlik giriş sayına, bir də dünyada yayılma arealına obyektiv nəzər salsın.**

*Süni giriş artımına nail olmaq elə də problem deyil!*

*Həm də hamımızın bildiyi bir həqiqət də var:*

*Heç Azərbaycana bu sayda qəzet və sayt da gərək deyil!*

**44 günlük Zəfər müharibəsi dövründə isə Müzəffər Ali Baş Komandan İlham Əliyevdən başqa, heç bir mənəm-mənəm deyən jurnalist, sayt və qəzet informasiya blokadasını yararaq dünya ictimaiyyətinə əsl həqiqətləri çatdıra bilmədi!**

Bir-iki çıxış isə "blokada yarmaq" deyil!

Nə qədər acı səslənsə də, başqa bir həqiqət də var: Təhsil aldığı sahədə uğur qazana bilməyənlərin bəziləri özlərini "jurnalistikada" sınamağa can atırlar.

"Reket jurnalistikası"nın yaranma səbəblərindən biri də elə budur!

Müsabiqədə iştirak edənlərin hər biri isə əvvəlcə özünü Leylini dünyanın ən gözəl qızı hesab edən Məcnunun gününə düşməkdən qorusa, yaxşıdır!

Münsiflər qrupu yazılara bir yox, bir neçə aspektdən (janr, sənətkarlıq, dil-üslub, ifadə, yaradıcılıq elementləri prizmasından) yanaşır.

Ayranlar kimi, zövqlər də müxtəlifdir!

Bunu da nəzərə almalıyıq!

Sonda jurnalist həmkarlarıma nə tövsiyə edərdim!

**Əvvəla, bir daha əmin olun: dövlətimiz və onun rəhbəri bizim arxamızdadır, daha yaxşı yazmağımızı, yaşamağımızı, həm də Vətənimizin əsl vətənpərvəri olmağımızı istəyir!**

*Hər il dövlət büdcəsindən ayrılan elə də az olmayan vəsait isə "artıq", gərəksiz pul deyil!*

*Min dərdi var!*

*Xüsusən də Qarabağımızın dirçəldildiyi bir dövrdə!*

*Bunu da qiymətləndirməyi bacarın!*

**İkincisi, olanı dəyərləndirməyi, təşəkkür etməyi, irad və narazılığı isə daha sivil, alicənab formada ifadə etməyi də öyrənməliyik!**

Axı biz jurnalistlərik!

Həm də nöqsan saydığımızı aradan qaldırmaq, daha yaxşı, dürüst və obyektiv nəticəyə nail olmaqdan ötrü əməkdaşlıq etməyə, kömək göstərməyə çalışmaq lazımdır, yersiz qarşıdurmaya getməyə yox!

Mətbuatımızın ənənə və prinsiplərini yaşatmağı, hadisələrə korifey jurnalistlərimiz kimi, milli maraqlar baxımından yanaşmağı da öyrənməliyik!

**Ən nəhayət, bu, MEDİA-nın ilk işidir!**

**Onlara uğur diləyib əlimizdən gələn köməyi də göstərməliyik!**

**Bu yol bizi istəyimizə daha tez çatdırar.**

**Bəxtiyar SADIQOV**



# "Dəmir yumruğ"un növbəti Zəfəri

*Əvvəli 1-ci səh.*

### Düşmən qaçarkən də müharibə cinayətinə əl atdı

Müharibənin başa çatmasından sonra Ermənistanın geri çəkilərkən torpaqlarımızı minaladığı məlum oldu. Bu bir daha Ermənistanın terrorçu siyasətinin təsdiqi oldu. Düşmən işğaldan sonra nəinki bütün binalarımızı, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda hər tərəfi minalamışdı. O cümlədən Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarından sonra məcburi geriyəçəkilmə mərhələsində də Ermənistan Azərbaycan tərəfinə mümkün qədər daha çox ziyan vurmaq və evlərinə qayıdacaq mülki əhaliyə əlavə maneələr yaratmaq üçün məqsədli şəkildə həmin ərazilərdə kütləvi şəkildə minalar yerləşdirib. Minalar təkcə təmas xəttinə yaxın olan ərazilərə yox, şəhərlərə, yollara, önəmli strateji yüksəkliklərə basdırılıb.

Hərbi əməliyyatların başa çatmasından sonra Ermənistan hər vəchlə mina xəritələrini verməkdən imtina edirdi. Əsas bəhanələri də o idi ki, guya, minalar basdırılarkən qeydiyyat aparılmayıb. Prezident İlham Əliyev Ermənistanın mina xəritələrini verməkdən imtina etməsini hərbi cinayət adlandırmışdı: "Burada ən böyük çətinlik ondan ibarətdir ki, Ermənistan tərəfi bizə mina xəritələrini vermir, bundan imtina edir. Halbuki biz dəqiq bilirik ki, onlarda belə xəritələr var. Sadəcə olaraq, bu xəritələri verməmək Ermənistanın növbəti hərbi cinayətidir".

Lakin bununla bağlı Azərbaycanın apardığı işlər nəticəsini verdi və Ermənistan ilk olaraq Ağdam rayonu üzrə minalanmış ərazilərin xəritəsini verməyə məcbur oldu. İlk olaraq 2021-ci il iyunun 12-də Ermənistan Ağdam rayonu üzrə tank və piyada əleyhinə 97 min minanı özündə əks etdirən xəritələri Azərbaycana təqdim etdi. Mina xəritələrinin Azərbaycana verilməsi, ilk növbədə, onu göstərdi ki, Prezident İlham Əliyevin Ermənistanı buna məcbur etmək üçün yürütdüyü prinsipial və məqsədyönlü siyasət öz uğurlu nəticəsini verməkdədir.

### Qətiyyətli siyasətin məntiqi nəticəsi

İyulun 3-də isə Ermənistan tərəfindən işğal dövründə Füzuli və Zəngilan rayonlarında basdırılmış tank və piyada əleyhinə təqribən 92 min minaya dair xəritələr Rusiya Federasiyasının təşəbbüsü ilə Azərbaycana təqdim edildi. Bu hadisə bir daha göstərdi ki, Azərbaycanın mina xəritələrinin mövcud olması barədə iddiaları tamamilə haqlı, Ermənistanın bəhanələri isə yalan imiş.

Füzuli və Zəngilan rayonlarında basdırdığı minaların xəritələrinin Ermənistandan alınması Prezident İlham Əliyevin həyata keçirdiyi fəaliyyətin məntiqi nəticəsi və siyasi-diplomatik qələbəsidir. Eyni zamanda növbəti mina xəritələrinin Azərbaycana verilməsi İlham Əliyevin düşünülmüş və qətiyyətli siyasəti nəticəsində Ermənistanın çıxılmaz vəziyyətə düşdüyünü və mina xəritələrini verməyə məcbur qaldığını sübut edir.

Humanist addım olaraq Azərbaycan tərəfi məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilmiş və təyin edilmiş cəza müddəti bitmiş 15 nəfər erməni əsilli şəxsi Ermənistana təhvil verib.

Mina xəritələrinin əldə edilməsi "dəmir yumruğ"un növbəti təntənəsidir. Bu, on minlərlə vətəndaşımızın, o cümlədən minatəmizləyənlərin həyatını təhlükədən xilas edəcək və işğaldan azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyev tərəfindən əsası qoyulan tikinti və yenidənqurma layihələrini və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan ərazisində terror-təxribat cinayətləri törədən erməni silahlılarının növbəti məhkəməsi keçirilib

Ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla atəşkəsin elan edilməsindən sonra Azərbaycan Respublikasının ərazisinə gizli yollarla qanunsuz keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvləri ilə bağlı cinayət işi üzrə iyulun 5-də Bakı Ağır Cinayətlər Məhkəməsində növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə bu cinayət işi üzrə təqsirləndirilən 13 nəfər - Karapetyan Rafik Robertoviç, Qolayan Qurgen Hovannesoviç, Tadevosyan Hrayr Seryojeviç, Maloyan Vaqarşak Merojanoviç, Yerğiazaryan Sasun Seyranoviç, Vardanyan Arsen Araikoviç, Bahrekyan Vahagen Edikoçiv, Soğomanyan Setrak Samveloviç, Dilanyan Arman Vazgenoviç, Martoyan Manuk Xovanesoviç, Anbardanyan Vels Karapetoviç, Mikaelyan Andranik Vazgenoviç, Qriqoryan Feliks Arşakoviçin terror-təxribat cinayətləri ilə bağlı cinayət işinə baxılıb.

İctimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin əməkdaşları iştirak ediblər.

Məhkəmə iclasında təqsirləndirilən şəxslərə hüquqları izah edilib, onların dövlət hesabına vəkillər və tərcüməçi ilə təmin olunduqları bildirilib.



Hakim bütün təqsirləndirilən şəxslərin dindirilməsinin həyata keçirildiyini bildirib.

Prosesdə şahid qismində Azərbaycan Ordusunun iki hərbi qulluqçusu ifadə verib.

Bu cinayət işi üzrə məhkəmə prosesi iyulun 12-də davam etdiriləcək.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində cinayət işinin istintaqı DTX-nin İstintaq Baş İdarəsində aparılıb.

İstintaqla müəyyənləşdirilib ki, cinayətkar silahlı birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq dekabrın 13-dək olan müddətdə ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar etdikləri, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Bu faktlarla bağlı qanunsuz silahlı birləşmənin üzvləri Mikaelyan Andranik Vazgenoviç, Soğomonyan Setrak Samveloviç, Karapetyan Rafik Robertoviç və digərləri də daxil olmaqla, ümumilikdə, daha 13 təqsirləndirilən şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunurlar.

# "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə 2021-2025-ci illər üçün Milli Fəaliyyət Planı"nın layihəsi müzakirə olunub



"Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar 2020-cı il ərzində görülən işlər barədə və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə 2021-2025-ci illər üçün Milli Fəaliyyət Planı" layihəsinin müzakirəsinə dair qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyəti institutları nümayəndələrinin iştirakı ilə görüş keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müzakirələr bu il iyulun 1-də Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibinin, Baş İdarənin və Ədliyyə Nazirliyinin əməkdaşlarının, eləcə də qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə aparılıb.

Tədbirdə ölkəmizdə əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın və hesabatlılığın artırılması, ictimai nəzarətin gücləndirilməsi və ictimai iştirakçılığın genişləndirilməsi sahəsində islahatların uğurla və davamlı şəkildə həyata keçirildiyi bildirilib. Eləcə də "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar 2020-ci ildə görülmüş işlər barədə məlumat verilib, həmçinin "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə 2021-2025-ci illər üçün Milli Fəaliyyət Planı" layihəsinin hazırlanmasında qeyri-hökumət təşkilatlarının nümayəndələrinin fəal iştirakının vacibliyi qeyd edilib.

Ümumi müzakirədə maliyyə şəffaflığının təmin edilməsi, korrupsiyanın qarşısının alınması sahəsində və ictimai həyatda vətəndaş cəmiyyəti institutlarının rolunu nəzərə alaraq layihə ilə bağlı geniş fikir mübadiləsi aparılıb, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin ilkin şifahi təklifləri dinlənilib, həmin təkliflərlə bağlı ortaya çıxan məsələlərin müzakirəsi aparılıb.

Eləcə də gələcəkdə həmin layihənin müzakirəsi ilə əlaqədar qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə davamlı olaraq görüşlərin keçirilməsinin vacibliyi diqqətə çatdırılıb.

# Rusiya ilə ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə edilib



İqtisadiyyat naziri Mikayıl Cabbarov Bakıda işgüzar səfərdə olan "Roseksimbank" SC-nin İdarə Heyətinin sədri Azər Talıbov ilə görüşüb. Görüşdə Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov və Azərbaycan-Rusiya İşgüzar Şurasının İdarə Heyətinin sədri Səməd Qurbanov da iştirak ediblər.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan və Rusiyanın strateji tərəfdaşlar olduğunu qeyd edən nazir ikitərəfli əlaqələrin əsas hərəkətverici qüvvəsinin dövlət başçılarının siyasi iradəsi, qarşılıqlı etimad və dostluq münasibətləri olduğunu vurğulayıb. Qeyd edilib ki, ölkələrimiz arasında nəqliyyat-tranzit, investisiya, sənaye, turizm və sair sahələrdə uğurlu əməkdaşlıq edilir. Rusiya Federasiyası Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və ölkəmizin qeyri-neft ixracında ilk yerdədir. Bununla belə, ticarət dövriyyəsinin artırılması üçün böyük potensial var və "Rusiya İxrac Mərkəzi", "Roseksimbank" SC ilə əlaqələrin genişləndirilməsi, iki ölkənin biznes dairələri arasında işgüzar səfərlərin təşkili qarşılıqlı ticarətin artırılmasına töhfə verə bilər.

Görüşdə Azərbaycan və Rusiya regionları arasında əlaqələrin, ticari-iqtisadi, investisiya tərəfdaşlığının gücləndirilməsi, "Roseksimbank" SC-nin ölkəmizdə bir sıra layihələrin maliyyələşdirilməsində iştirakı və xarici ticarət maliyyələşməsi alətlərinin səmərəliliyinin artırılması barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan Qazaxıstanla əməkdaşlığı genişləndirir



İqtisadiyyat naziri Mikayıl Cabbarov Qazaxıstanın "Samruk-Kazyna" SC-nin İdarə Heyətinin sədri Almasadam Satkaliyev, "KazMunayQaz" SC-nin İdarə Heyətinin sədri Alik Aidarbayev və həmkarları ilə görüşüb.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Qazaxıstan arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyi vurğulanıb, ölkələrimiz arasında iqtisadi münasibətlərin bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə olunub.

Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyəti barədə məlumat verən M.Cabbarov "Samruk-Kazyna" SC ilə kooperativ idarəetmə sahəsində təcrübə mübadiləsinin, iqtisadiyyata özəl investisiyaların cəlb edilməsinin, portfel şirkətlərin rəqəmsal transformasiyasının əhəmiyyətini diqqətə çatdırıb, ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Görüşdə Azərbaycan və Qazaxıstan arasında nəqliyyat-logistika, neft-qaz sahəsində əməkdaşlıq, birgə layihələrin icrası məsələləri müzakirə edilib.

# *ANAMA:* Vətən müharibəsinin başa çatmasından indiyədək 3326 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, bu il iyunun 1-dən iyulun 3-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 1087, tank əleyhinə 316 mina və 461 partlamamış hərbi sursat aşkarlanıb. Əməliyyatlar nəticəsində 563 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. 2020-ci il noyabrın 10-dan bu il iyulun 3-dək həmin rayonların ərazilərində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı isə piyada əleyhinə 8509, tank əleyhinə 3959 mina və 9493 partlamamış hərbi sursat aşkarlanıb. Beləliklə, bu əməliyyatlar nəticəsində 3326 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Azərbaycanda son sutkada koronavirus infeksiyasından ölən olmayıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 33 nəfər müalicə olunaraq sağalıb, 62 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, son sutkada koronavirus infeksiyasından ölən olmayıb.

Hazırkı dövrədək ölkəmizdə 336 min 479 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 330 min 466 nəfər müalicə olunaraq sağalıb, 4978 nəfər vəfat edib. Aktiv xəstə sayı 1035 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 793 min 40 test aparılıb. Dünənki test sayı isə 5951 olub.

# Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 3 milyon 793 min 533-ə bərabərdir

İyulun 5-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 769 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 294, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 475 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 3 milyon 793 min 533-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 345 min 371, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 1 milyon 448 min 162 nəfərdir.


## Səhmdarların nəzərinə

**"NB SERAMİK" MMC (VÖEN: 1501262201,** bundan sonra **"Borc alan"** adlandırılacaq) ilə ASC **"Xalq"** Bankı **(VÖEN: 2000296061,** bundan sonra **"Bank"** adlandırılacaq) arasında bağlanmış **12.07.2016-cı il** tarixli **100401561681316** saylı Kredit xətti müqaviləsinin (bu müqaviləyə bağlanmış bütün Əlavə Sazişlər nəzərə alınmaqla; bundan sonra **"Kredit xətti müqaviləsi"** adlandırılacaq) ödəniş şərtlərinin dəyişdirilməsi və Kredit xətti müqaviləsi üzrə müddətin əlavə 12 ay artırılaraq 12.07.2023-cü il tarixədək uzadılması ilə bağlı ediləcək dəyişikliklər üzrə Kredit xətti müqaviləsinin təminatı qismində çıxış edən **"NB HOLDİNG" ASC (VÖEN: 1501630601,** bundan sonra **"Girov qoyan"** adlandırılacaq) ilə **Bank** arasında bağlanmış **12.07.2016-cı il** tarixli **100401561681316/GM-1** saylı **Torpaq sahəsi üzərində icarə hüququnun girovu haqqında** müqaviləyə (bu müqaviləyə bağlanmış bütün Əlavə Sazişlər nəzərə alınmaqla; bundan sonra **"Girov müqaviləsi"** adlandırılacaq) zəruri dəyişikliklər edilməsi ilə bağlı növbədənkənar 09.08.2021-ci il tarixdə Səhmdarların ümumi yığıncağının keçirilməsi nəzərdə tutulmuşdur.

***Rəhbərlik***


# "AzerGold" QSC-də ölkənin tanınmış geoloqları ilə görüş keçirilib









"AzerGold" Qapalı Səhmdar Cəmiyyətində (QSC) geologiya elminin və dağ-mədən sahəsinin inkişafında mühüm xidmətlər göstərmiş geoloqlarla görüş keçirilib.

"AzerGold" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, 5 iyul - cəmiyyətin fəaliyyətə başlamasının 5-ci ildönümünə təsadüf edən görüşöncəsi "AzerGold"un kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək, xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə əklil qoyub. Həmçinin akademik Zərifə xanım Əliyevanın məzarı önünə gül dəstələri düzülüb, Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsi anılıb.

Görüşdə çıxış edən "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov dağ-mədən sənayesinin hər bir ölkənin iqtisadi inkişafını şərtləndirən əsas fəaliyyət sahələrindən biri olduğunu qeyd edib. Bildirilib ki, ölkəmizdə sənayenin müstəqil bir sahəsi kimi, dağ-mədən sektorunun tərəqqisi Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri ilə bağlıdır. Ulu Öndərin istər Sovet Azərbaycanına, istərsə də müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dönəmində atılan bir sıra vacib addımlar, onun layiqli davamçısı möhtərəm cənab Prezident İlham Əliyevin qətiyyətlə davam etdirdiyi ardıcıl siyasət kursunun effektiv nəticələri ölkə iqtisadiyyatının bütün sahələrində olduğu kimi dağ-mədən sənayesinin dayanıqlı və dinamik inkişafı istiqamətində də özünü göstərməkdədir.

İdarə Heyətinin sədri cəmiyyət üçün əlamətdar olan 5 iyul tarixinin ölkəmizin zəngin təbii resurslarının araşdırılması və geologiya elminin tədris edilməsi istiqamətində əvəzsiz xidmətlər göstərmiş dəyərli ziyalılarımıza verilən yüksək dəyərdən qaynaqlandığını bildirib. Tədbirdə iştirak edən və cəmiyyətin "Çovdar" qızıl, "Filizçay" polimetal yataqlarının kəşfi, eləcə də tədqiq edilməsinə töhfə vermiş görkəmli geoloqlar - Şahbəddin Musayev, Müzahim Piriyev, Ələkbər Əhmədov və digərlərinə minnətdarlıq ifadə olunub, həmçinin bu və digər yataqların kəşfi və tədqiqində böyük xidmətləri olmuş mərhum geoloqlarımız hörmətlə xatırlanıb. Bu xüsusda görüşdə "Filizçay" yatağının tədqiqində əvəzsiz xidmətləri olmuş dəyərli alim, geologiya-mineralogiya üzrə elmlər doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, mərhum Tofiq Abdulla oğlu Həsənov ehtiramla yad edilib. Zakir İbrahimov Böyük Qafqazın cənub yamacında "Filizçay" polimetal yatağının plinsbax yaşlı olmasını müəyyən edən Tofiq Həsənovun geologiya elminə böyük töhfələr verdiyini qeyd edib. İdarə Heyətinin sədri "Filizçay" yatağında yayılan filiz daşıyıcı suxurların və filizləşmənin dəqiq yaşının ilk dəfə məhz T.Həsənov tərəfindən müəyyən edilməsinin həmin regionda yerləşən digər yataqların tədqiqi üçün də böyük imkanlar yaratdığını diqqətə çatdırıb. O, bu gün böyük fəxr hissi ilə adları çəkilən qocaman alimlərin başlatdığı uğurlu yolun onların davamçıları, yeni geoloq nəsli tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Sədr həmçinin dövlət şirkətinin 5 ildə əldə etdiyi uğurlardan və qarşıda duran vəzifələrdən bəhs edib. Bildirilib ki, Azərbaycanın son 20 ildə əldə etdiyi iqtisadi-siyasi uğurlar ölkəmizin təkcə regional səviyyədə deyil, qlobal miqyasda da rolunun artmasına, irihəcmli iqtisadi layihələrin icrasına, ümumilikdə iqtisadiyyatın bütün sahələrinin tərəqqisinə birbaşa təsir edib. Bu məqam dağ-mədən sektoruna da təsirsiz ötüşməyib.

İdarə Heyətinin sədri əlavə edib ki, 2016-cı ildə fəaliyyətə bir mədənin - "Çovdar" qızıl mədəninin istismarından başlayan cəmiyyət hazırda 2 mədəndə hasilat işləri aparır. Qısa dövrdə "Ağyoxuş" yataqlar qrupu və "Mərəh" qızıl yatağının kəşf edilməsinə nail olunub. Ümumilikdə, cəmiyyət "Ağyoxuş" və "Mərəh" də daxil olmaqla, "Çovdar" əlvan metal filizi yataqlar qrupu, "Köhnəmədən" sahəsi, Naxçıvan Muxtar Respublikasındakı qızıl və mis yataqları ("Göydağ" sahəsi) və "Daşkəsən" dəmir filizi yataqları qrupu üzrə kəşfiyyat işlərini davam etdirir. Qarşıdakı illərdə həmin yataq qrupları üzrə yeni mədənlərin istismara verilməsi planlaşdırılır.

Zakir İbrahimov tək bir mədənin - Daşkəsəndə yerləşən "Çovdar" qızıl mədəninin istismarı nəticəsində bu günədək əlvan metal ixracından ölkə iqtisadiyyatına 639 milyon manatdan çox vəsait cəlb edildiyini qeyd edib. Cəmiyyətin göstəricilərinin uğurlu maliyyə siyasəti ilə birbaşa bağlı olduğunu bildirən sədr bunun əyani nümunəsi kimi hazırda şirkətin heç bir bank krediti öhdəliyinin olmadığını vurğulayıb. Z.İbrahimov "AzerGold"un bitmək üzrə olan maliyyə auditinin ilkin nəticələrinə əsasən, səhmdar cəmiyyət öz səhmdarı olan dövlətə ilk dəfə dividend ödənilməsini həyata keçirəcəyi haqqında da məlumat verib.

Sədr bundan sonrakı dövrdə də cəmiyyətin qarşıya qoyulan hədəflərə nail olacağına, xüsusilə qarşıdakı dövrlərdə digər mədən sahələrinin istismara verilməsi, yeni iş yerlərinin yaradılması ilə bölgələrin sosial-iqtisadi mənzərəsinin daha da yaxşılaşdırılması istiqamətində ciddi uğurlara imza atacağına əmin olduğunu bildirib.

Daha sonra çıxış edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin rəisi Əli Əliyev "AzerGold"un 5 il ərzində geoloji kəşfiyyat və hasilatın səmərəliliyinin artırılması istiqamətində gördüyü işlərdən danışıb. Əli Əliyev cəmiyyət tərəfindən reallaşdırılan tədqiqat işləri nəticəsində istismarına hazırlıq görülən yataqların əlvan metal resurslarının qəbul edilmiş beynəlxalq standartlara əsasən, ümumilikdə, 24 dəfə artırılmasını yüksək qiymətləndirib.

Daha sonra "AzerGold" QSC-nin Geologiya şöbəsinin müdiri Şahbəddin Musayev, Zaqatala-Balakən filiz rayonunda aşkarlanmış "Qələbə" polimetal filizləri təzahürünü ilk kəşf edənlərdən biri, tanınmış geoloq Ağamahmud Səmədov və digər qocaman geoloqlar çıxış ediblər. Müzakirə formatında keçirilən görüşdə şirkətin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub, Azərbaycanın dağ-mədən sənayesinin hazırkı vəziyyəti barədə fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda "AzerGold" QSC-nin 5 illik yubileyi münasibətilə bu illər ərzində səhmdar cəmiyyətlə fəal əməkdaşlığına görə qocaman geoloqlara təşəkkürnamə və xatirə hədiyyələri təqdim edilib.

*Əvvəli 1-ci səh.*

# Buzlu zəhər

## Bazardakı keyfiyyətsiz dondurmalar alıcıların sağlamlığı üçün ciddi təhlükədir

### 1000-dən çox yerli dondurma istehsalçısı var

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov hazırda ölkədə 1000-dən çox dondurma istehsalçısı olduğunu, ancaq onların arasında müasir texnologiya üzrə dondurma istehsal edənlərin sayının az olduğunu açıqlayır. Ekspert dondurma bazarındakı ən əsas problemin bu məhsulların keyfiyyəti ilə bağlı olduğunu söyləyir.

Mütəxəssisin sözlərinə görə, ölkədə keyfiyyəti yaxşı olmayan, çoxsaylı arzuolunmaz dondurmalar istehsal olunur. İstehlakçıların rəğbətini qazanmış bəzi xarici dondurma brendlərini saxtalaşdıran, onlara oxşar adla dondurma istehsal edən firmalar da var. AİB sədri dondurmaların keyfiyyətsizliyinə səbəb olan məsələlərdən birinin onun yağlılığının süni yolla artırılması ilə bağlı olduğunu açıqlayır:

Ekspert deyir ki, hazırlanma texnologiyasında dondurmanın yağlılığını artırmaq üçün standartlara uyğun olaraq yalnız kərə yağından istifadə olunmalıdır. Lakin istehsal müəssisələri dondurmaların yağlılığını artırmaq üçün onlara marqarin, bitki mənşəli yağ əlavə edirlər ki, bu da məhsulu keyfiyyətsiz edir. İstehlakçılar dondurma yedikləri zaman onun keyfiyyətsizliyini müəyyən edə bilmək üçün ilk növbədə onun dadının acı olub-olmadığına diqqət yetirməlidirlər. Dondurmanı yedikdə dilin üstündə, boğazda acılıq hiss edilirsə, deməli, yağlılığı artırmaq üçün ona kərə yağı deyil, marqarin, bitki mənşəli yağ əlavə edilib.

Eyyub Hüseynov əlavə edir ki, istehlakçılar gilizlərdə - qablaşdırılmamış silindr qablarda satılan dondurmalardan da şikayət edirlər: "Çox zaman açıq satılan dondurmaların yararlılıq müddəti müəmmalı olur. Buna görə də istehlakçılar belə məhsullarla bağlı məlumatların qeyd edildiyi sənədləri tələb etməlidirlər".



### Xaricdən gətirilən dondurmalar daha təhlükəlidir

Eyyub Hüseynov açıqlayır ki, Azərbaycanda satılan dondurmaların 20-30 faizi xaricdən gətirilir: "Xaricdən mal gətirilən zaman dondurmalar müəyyən temperatur risklərinə məruz qalır. Əgər dondurma bir dəfə temperatur riskinə məruz qalıb yenidən dondurulursa, o, artıq təhlükəli və çirklənmiş sayılır. Belə dondurmaları onların qablarının formasına baxmaqla müəyyən etmək olar. Əgər dondurma əzilmiş formadadırsa, demək o, əriyib yenidən dondurulub. Bu cür dondurmaları almaq arzuolunmazdır, alıcılar buna diqqət yetirməlidirlər".

AİB sədri bunu da qeyd edir ki, xaricdən dondurma daşıyan nəqliyyat vasitəsində temperatur rejimini avtomatik müəyyən edən xüsusi cihaz yerləşdirilməlidir: "Bu təyyarədəki "qara qutu" kimi bir cihazdır. Yolboyu həmin cihaza temperatur rejimi avtomatik olaraq yazılır. Azərbaycanda malı qəbul edən şirkət birinci o "qara qutu"nu açıb baxmalıdır və bunun əsasında müəyyən etməlidir ki, yolda o, riskə məruz qalıb, ya yox. Çox təəssüflər olsun ki, bu barədə nə Azərbaycana xaricdən mal idxal edənlərin, nə də istehlakçıların məlumatı yoxdur".

Eyyub Hüseynovun sözlərinə görə, dondurma istehsalı üçün xammalın mənbəyindən istehlakçıya çatdırılana qədər qida zəncirində iştirak edən bütün hüquqi və fiziki şəxslər Qida Təhlükəsizliyi Agentliyinin reyestrinə daxil olmalıdır ki, bu qurum onlara nəzarət edə bilsin. Lakin təəssüf ki, bu məsələ də tam həll olunmayıb.

Ekspert istehlakçılara tövsiyə edir ki, onlar bütün hallarda yerli, yararlılıq müddəti az olan dondurmalara üstünlük versinlər: "Çünki yerli dondurmalar az kimyalaşdırılır. Bundan başqa, istehlakçılar meyvəli dondurmalardan çəkinməlidirlər, çünki onlardan zəhərlənmələr daha çox baş verir. Bir dəfəyə 300 qramdan çox dondurma yemək olmaz. Əks təqdirdə bədənin temperaturu bir anda aşağı düşə, hətta insan ölə bilər".

### Dondurma sevinc əvəzinə, ölüm də gətirə bilər

Azərbaycanda qida təhlükəsizliyinə cavabdeh və nəzarətedici əsas qurum Qida Təhlükəsizliyi üzrə Dövlət Agentliyi olduğundan dondurma bazarındakı vəziyyətlə bağlı suallarımızı bu quruma ünvanladıq. Suallarımızın kifayət qədər konkret olmasına baxmayaraq, agentlikdən lazımi cavab ala bilmədik. Belə ki, agentlik yalnız vikipediya məlumatlarına bənzər ümumiləşdirilmiş yazılı cavab göndərməklə kifayətləndi.

London Psixiatriya İnstitutunun bir neçə il əvvəl apardığı araşdırmaya görə, dondurma insanda əhvalın yaxşılaşmasına və xoşbəxtliyin yaranmasına səbəb olur. Dondurmanın ağızda sərinləşdirici və susuzluğu aradan qaldırması insanın yaxşı əhvali-ruhiyyədə olmasını təmin edir. Dondurma yeyərkən beyinə ötürülən siqnal onun xüsusi bir hissəsini aktivləşdirir və bunun sayəsində insan özünü xoşbəxt hiss edir.

Lakin göründüyü kimi, dondurma insanı yalnız xoşbəxt etmir. O, insan səhhəti üçün müəyyən problemlər də yarada bilər. Bu problemlərin yaranmaması üçün yediyimiz dondurmaların təhlükəsizliyinə əmin olmalıyıq. Lakin səlahiyyətli qurumlar lazımi nəzarət funksiyalarını yerinə yetirmədikdə və satışa keyfiyyətsiz dondurmaların çıxarılmasına göz yumduqda qida təhlükəsizliyini təmin etmək istəyən alıcının əlacı yalnız özünə qalır.

Keyfiyyətli dondurma yediyinə əmin olmaq istəyən alıcı müxtəlif mənbələrdən əldə etdiyi məlumatlar hesabına məhsulun keyfiyyətsizliyini göstərən zahiri əlamətləri öyrənməli və onun əsasında dondurmanın keyfiyyətsiz olub-olmadığını müəyyən etməyi bacarmalıdır. Çünki mövcud reallıq alıcılar üçün başqa yol qoymur.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Kapital qoyuluşunun əsas ünvanı - qeyri-neft sektoru

### Xarici investorlar pandemiya dövründə də Azərbaycan iqtisadiyyatına sərmayə yatırmaqdan ehtiyat etmirlər



*Əvvəli 1-ci səh.*

Onu da qeyd edək ki, əvvəllər əcnəbi sərmayədarlar investisiya qoyuluşunda neft sənayesinə üstünlük verirdilərsə, aparılan iqtisadi siyasət, həyata keçirilən islahatlar xarici investorların qeyri-neft sektoruna da marağını artırdı. Bunun nəticəsidir ki, ölkəmizin qeyri-neft sektoruna xarici kapitalın qoyuluşu hətta pandemiya dövründə davam etmişdir.

Beynəlxalq təşkilatların apardıqları araşdırmalara görə, Azərbaycandakı mövcud investisiya mühiti MDB məkanında, həmçinin bir çox Şərqi Avropa ölkələrində olduğundan əlverişlidir. Avropanın, Amerikanın və Asiyanın iri bankları, həmçinin həmin regionlardan olan sahibkarların Azərbaycan iqtisadiyyatına milyardlarla dollar sərmayə yatırması məhz bunun sayəsindədir.

Dövlət Statistika Komitəsinin cari ilin yanvar-may ayları üçün açıqladığı rəqəmlərə görə, xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 1 milyard 946,2 milyon manat vəsait yönəldilib. Həmin vəsaitin 1 milyard 752,5 milyon manatı Birləşmiş Krallıq, ABŞ, İsveçrə, Türkiyə, Yaponiya, Virgin adaları, Norveç, Malayziya, Fransa, Rusiya və İran sərmayədarlarına məxsusdur.

Məlum olduğu kimi, iki ildən çoxdur tüğyan edən koronavirus pandemiyası dünya iqtisadiyyatına böyük zərbə vurur. Adətən, bu cür çətin şəraitdə sərmayədarlar kapital qoyuluşuna risk etmirlər. Amma rəqəmlərdən də göründüyü kimi, sərmayədarlar pandemiya vaxtında da Azərbaycana kapital qoymağa ehtiyat etmirlər. Hazırda koronavirusa qarşı kütləvi şəkildə aparılan peyvəndləmə sayəsində proses müsbətə doğru gedir və bütün dünya postpandemiya dövrünə hazırlaşır. Sözsüz ki, bundan sonra ölkəmizə xarici kapital qoyuluşu daha da artacaq. Çünki Azərbaycana sərmayə yatıran sahibkarlar peşman olmurlar, əksinə, qazanc əldə edirlər.

Dövlətimiz neft gəlirlərindən səmərəli şəkildə istifadə edərək özü də iqtisadiyyata kapital qoyuluşu həyata keçirir. Bu vəsait, ilk növbədə, infrastruktur və sosial layihələrin icrasına yönəldilir. Eyni zamanda sahibkarlığı və özəl sektoru inkişaf etdirmək üçün güzəştli kreditlər verilir. Dövlət Statistika Komitəsinin yanvar-may aylarında kapital qoyuluşu ilə bağlı açıqladığı rəqəmlər də sahibkarlığın inkişaf səviyyəsini bir daha təsdiq edir. Belə ki, cari ilin 5 ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 4 milyard 907 milyon manat vəsait yönəldilib. Ümumi sərmayənin 33,5 faizi dövlət, 66,5 faizi isə qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən yatırılıb. Bu fakt dövlətin sahibkarılığın inkişafına verdiyi dəstəyin müsbət nəticəsini göstərir. Digər bir mühüm fakt isə odur ki, daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri ümumi sərmayənin 60,3 faizini təşkil edir. Yəni ölkəmiz öz valyuta ehtiyatları və yerli sahibkarın imkanları hesabına xarici investisiyalar yatırılmadan belə, inkişaf etmək iqtidarındadır.

Yeri gəlmişkən qeyd edək ki, cari ilin 5 ayı ərzində neft-qaz sektoruna 2 milyard 287,9 milyon manatlıq vəsait yönəldilib. Qeyri neft-qaz sektorunun inkişafına isə 2 milyard 619,1 milyon manatlıq vəsait qoyulub.

Hesabat dövründə əsas kapitala yönəldilmiş vəsaitin çox hissəsindən sənaye, tikinti, nəqliyyat və anbar təsərrüfatı, peşə, elmi və texniki fəaliyyət, kənd təsərrüfatı və digər sahələrin inkişafında istifadə olunub. Bununla yanaşı, həmin dövrdə ölkəmizdə bir sıra sosial, infrastruktur, sənaye, emal və digər obyektlər tikilib. Belə ki, cari ilin yanvar-may aylarında Naxçıvan Muxtar Respublikasında "Azərxalça" ASC-nin filialı, Naxçıvan qarnizonu Mərkəzi Hospitalı, Süni Mayalanma Mərkəzi, Culfa-Ordubad magistral avtomobil yolu, Bakıda İqtisadiyyat Nazirliyinin yeni inzibati binası, 4 saylı DOST Mərkəzi, Respublika Baş Prokurorluğunun inzibati bina kompleksi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yeni inzibati binası, Sumqayıtda Vərəqə şüşə istehsalı zavodu, Hacıqabulda "Azərsun Şamaxı Aqropark"ı, Hacıqabul Sənaye Məhəlləsi, "Qarasu" elektrik yarımstansiyası, Qəbələdə Qəbələ Dəmir Yol Vağzalı və Ləki stansiyası - Qəbələ birxətli dəmir yolu, Şuşada 110/35/10 kilovoltluq elektrik yarımstansiyası və s. obyektlər tikilərək istifadəyə verilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## "Azərkosmos" Çinin "Satelliteherd" şirkəti ilə əməkdaşlığa başlayıb

"Azərkosmos" ASC Çinin kosmik sənayesinin kommersiya fəaliyyətini həyata keçirən yüksək texnologiya şirkəti "Satelliteherd" ilə əməkdaşlıq müqaviləsi imzalayıb.



ASC-dən AZƏRTAC-a bildirilib ki, müqaviləyə əsasən, "Satelliteherd" şirkəti "Azərkosmos"un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzində (ƏYPİM) diametri 4,2 metr olan yerüstü anten quraşdırıb. "Satelliteherd" şirkəti bu anten vasitəsilə kosmik bazarda fəaliyyət göstərən peyklər və peyk şəbəkələri arasında izləməni, peyklərin sağlamlığının yoxlanılmasını, telemetriyanın alınmasını və peyklərə nəzarətin düzgün aparılmasını təmin edəcək.

Kosmik texnika mühəndisliyi sahəsində yüksək təcrübəyə malik olan "Satelliteherd" şirkəti ƏYPİM-də quraşdırılan anten sayəsində peyklərdən düzgün siqnalların qəbulu üçün etibarlı və müasir həllər təqdim edəcək.

"Çin ilə Azərbaycanın coğrafi baxımdan biri-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, "Satelliteherd" şirkəti ilə peyk həlləri sahəsində fəal əməkdaşlıq edəcəyimizə əminəm", - deyə "Azərkosmos"un Baş kommersiya direktoru Mark Qusriye qeyd edib.

"Azərkosmos"un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzinin unikal və əlverişli mövqeyi bizə bu il və növbəti illər ərzində kommersiya fəaliyyəti göstərən peyklər üçün daha da etibarlı xidmət göstərməyimizə imkan verəcək", - deyə "Satelliteherd" şirkətinin beynəlxalq biznes üzrə icraçı vitse-prezidenti Liçenq Yanq bildirib.

Cənubi Qafqazda ilk və yeganə peyk operatoru olan "Azərkosmos" ASC telekommunikasiya və coğrafi kəşfiyyat sahələri üçün yüksəkkeyfiyyətli peyk xidmətləri təqdim edir. 2013-cü ilin fevral ayında orbitə buraxılan və Azərkosmos tərəfindən idarə edilən "Azerspace-1" peyki 46° şərq uzunluğu orbital mövqeyində yerləşir və Avropa, Afrika, Yaxın Şərq, Qafqaz və Mərkəzi Asiya regionlarını əhatə edir. 2014-cü ilin dekabr ayından etibarən "Azərkosmos" sayca ikinci, təyinatına görə yüksək ayırdetməli (1,5 m ayırdetmə) Yer səthinin məsafədən müşahidə peyki olan "Azersky"ın idarəçiliyini təhvil almış və bununla da geoinformasiya xidmətləri də daxil olmaqla Yer səthinin məsafədən müşahidəsinin kommersiya fəaliyyətinə başlamışdır. "Azərkosmos" 2018-ci ildə ikinci telekommunikasiya peyki "Azerspace-2"ni 45° şərq uzunluğu orbital mövqeyinə çıxarıb.

## Abşeron rayonunda fəaliyyət göstərən sahibkarlarla görüş keçirilib

Görüşdə rayonun iş imkanlarının vahid formada təqdimatı, məşğulluqla bağlı müraciətlərin müvafiq sahibkarlıq subyektlərinə yönləndirilməsi, işaxtaran və işəgötürənlər arasında münasibətlərin formalaşdırılması məsələləri müzakirə olunub.

Tədbirdə çıxış edən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirib ki, bu gün ölkənin hər yerində olduğu kimi, Abşeron rayonunda da sahibkarlar üçün münbit şərait formalaşıb. İşlə təminat, yeni iş yerlərinin yaradılması və sahibkarların hüquqlarının qorunması istiqamətində görülən tədbirlərə rayon icra hakimiyyəti tərəfindən dəstək verildiyini deyən İ.Gülməmmədova şəhid və qazi ailələrinin işlə təmin edilməsinə xüsusi həssaslıqla yanaşılmasının vacibliyini qeyd edib. Bildirib ki, hazırda rayon icra hakimiyyətində yaradılan xüsusi komissiya ora müraciət edən qazi və şəhid ailələrinin bütün problemlərinin həllini birinci vacib məsələ kimi qeydiyyata alınır.

Daha sonra Milli Məclisin deputatı Şahin Seyidzadə, Dövlət Məşğulluq Agentliyi idarə heyətinin sədr müavini Cəmaləddin Quliyev çıxış edərək ölkədə sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən, qəbul olunan qanun və qərarlardan söz açıblar.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Qeyri-neft məhsullarının ixracı 27,1 faiz artıb

Bu ilin yanvar-iyun ayları ərzində ölkəmizdə qeyri-neft sektoru üzrə ixracın dəyəri 1 milyard 162,4 milyon ABŞ dolları təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nda bildilir ki, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 27,1 faiz artıb.

Azərbaycanda həyata keçirilən kompleks tədbirlər nəticəsində koronavirus (COVID-19) pandemiyasının qeyri-neft ixracına mənfi təsirləri azaldılıb və ixracda dinamik artıma nail olunub. Qeyd edilən müddətdə şəkər ixracı 2,5 dəfə, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 2,4 dəfə, pambıq lifi ixracı 2,1 dəfə, pambıq ipliyinin ixracı 2,4 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı isə 49 faiz artıb.

## Hərbi səbəblərlə əlaqədar əlillik müddəti bitən daha 16 şəxsə təkrar əlillik təyin olunub

Hərbi səbəblərlə əlaqədar təyin edilmiş əlillik müddətinin uzadılması üçün barələrində e-sistemə göndəriş daxil edilmiş, eləcə də əlillik sənədlərində ziddiyyət aşkarlanan 28 şəxsin əyani müayinəsi aparılıb.

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində müvafiq komissiya tərəfindən aparılan müayinə zamanı həmin şəxslərdən 16-na əlillik təyin olunmasına dair qərar qəbul olunub.

9 nəfərin diaqnoz və sağlamlıq durumunun əlilliyə əsas vermədiyi müəyyən edilib. 1 nəfərə müalicənin davam etdirilməsi, 1 nəfərə isə yenidən müayinə üçün göndəriş tərtib edilib. Digər şəxsə isə əlilliyin qiymətləndirilməsi üçün hərbi qərarın gətirilməsi tövsiyə olunub.

Şəffaflığın tam təmin olunması üçün əyani müayinələrin videoçəkilişləri aparılır, qeyri-hökumət təşkilatları nümayəndələrinin müayinələrdə iştirakı təmin edilir. Budəfəki müayinədə "Əlilliyi olan Qadınlar Cəmiyyəti" İB-nın sədri Məhluqə Rəhimova iştirak edib.

Bu kimi əyani müayinələrin əsas məqsədi əlilliyin qiymətləndirilməsinin tam şəffaflaşdırılması, əsassız əlillik təyinatlarına yol verilməməsidir.

## Laçınlı taxılçılar biçini başa çatdırıblar

Ağcabədi rayonunun Taxtakörpü ərazisində məskunlaşan laçınlı məcburi köçkünlər taxıl biçinini başa çatdırıblar.



Laçın Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildiriblər ki, 876,4 hektar taxıl sahəsindən 1996,8 ton məhsul əldə edilib. Məhsulun 79,3 tonu buğda, 1917,5 tonu arpadır. Hər hektarın məhsuldarlığı orta hesabla buğda sahələrində 25 sentner, arpa zəmilərində isə 22,7 sentnerdir.

Qeyd edək ki, Ağcabədi rayonu ərazisində məskunlaşan laçınlı məcburi köçkünlər əsasən taxılçılıq və heyvandarlıqla məşğul olurlar.

## Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları Qarabağın inkişaf planına uyğun inşa edilir

*Əvvəli 1-ci səh.*

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "37 N-li Yol İstismarı" MMC ilə subpodratçı şirkət olaraq yol tikintisi sahəsində ixtisaslaşmış və ölkəmizdə indiyədək bir neçə layihəni uğurla tamamlamış "Türkiyənin Polat Yol Yapı San." və "Tic. Anonim Şirkəti" birgə icra edir.

Hazırda Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 36 kilometrlik hissəsində torpaq işləri aparılır. Belə ki, tikinti norma və standartlarına uyğun olaraq yol əsasının və yatağın deformasiyaya uğramış yararsız qruntu, həmçinin torpaq yatağının genişləndirilməsi üçün bitki qatının və yararsız hissələrin qazılaraq çıxarılması işləri görülüb. Xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun 21.5 metr enində yeni torpaq yatağının inşası işləri həyata keçirilir. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib.

Yeni inşa edilən yollar boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə dairəvi borular və düzbucaqlı su keçidləri, həmçinin zəruri olan yerlərdə 5 yeni avtomobil körpüsünün inşası işləri də icra olunur. Artıq qeyd edilən körpülərdən birinin inşasına başlanılıb, hazırda svay qazılma işləri aparılır. Bununla yanaşı, tikiləcək yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə heyvanlar üçün yolaltı keçidlərin tikintisi aparılır. Həmçinin yolboyu müxtəlif gərginlikli elektrik xətləri köçürülür.

Yolun tikintisinin qısa müddət ərzində icra edilməsini təmin etmək məqsədilə Xanlıq yaşayış məntəqəsi yaxınlığında yeni düşərgə inşa edilir. Düşərgədə asfalt-beton zavodu, maşın-mexanizmlərin saxlanılması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və dincəlmək üçün yerlər qurulur.

Yeni Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, sözügedən rayonların 30-dan artıq yaşayış məntəqəsini əhatə edəcək.



Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin nəqliyyat, rabitə və yüksək texnologiyalar İşçi Qrupu çərçivəsində digər aidiyyəti dövlət qurumları ilə koordinasiyada həyata keçirilən bu yol layihəsi Qarabağın vahid nəqliyyat konsepsiyasının ayrılmaz tərkib hissəsini təşkil edir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

## "Daşlı adası çoxdan mövcuddur və vulkan püskürməsi nəticəsində yaranıb"

"Dünyada 900 palçıq vulkanı mövcuddur. Onlardan 300-ə qədəri Azərbaycandadır. Dünənki vulkan püskürməsi də vulkan mənşəli Daşlı adasında qeydə alınıb".



AZƏRTAC xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoloji siyasət şöbəsinin müdiri Rasim Səttarzadə deyib. Onun sözlərinə görə, həmin ada çoxdan mövcuddur və vulkan püskürməsi nəticəsində yaranıb: "Xəzər dənizində 200-ə qədər sualtı palçıq vulkanı var. Onlardan 120-si Azərbaycan sektoruna aiddir. Bundan başqa, Abşeron arxipelaqında 8 vulkan mənşəli ada var".

R.Səttarzadə bildirib ki, hazırda Bakı və Abşeron yarımadasında müşahidə olunan küləkli hava şəraiti ilə əlaqədar gəmilərin həmin əraziyə yaxınlaşmasında müəyyən çətinliklər yaranıb: "Hava şəraitinin stabilləşməsindən sonra Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar nazirlikləri, SOCAR və AMEA-nın mütəxəssislərindən ibarət ekspedisiya qrupu ETSN-in "Əlif Hacıyev" elmi-tədqiqat gəmisi ilə həmin yerə çıxacaq. Həmin əraziyə yaxın yerlərdən su nümunələri, dib çöküntüləri götürüləcək, dünən baş vermiş vulkan püskürməsi nəticəsində ətraf mühitdəki dəyişikliklərin nəzarətdə saxlanılması üçün elmi-tədqiqat işləri aparılacaq".

## Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın yaradılmasından 2 il ötür

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın yaradılmasından iki il ötür.

Bununla əlaqədar keçirilən mətbuat konfransında Milli Observatoriyanın İdarə Heyətinin sədri Elşən Əsədov Observatoriyanın fəaliyyəti barədə məlumat verib.

Qeyd edib ki, Prezident İlham Əliyevin 4 iyul 2019-cu il tarixli fərmanının icrası olaraq, Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli qərarı əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində publik hüquqi şəxs olaraq yaradılıb. Observatoriya əmək, məşğulluq, sosial müdafiə sahələrində səmərəli idarəetmə qərarlarının qəbul edilməsi üçün təkmil monitorinq, təhlil, proqnozlaşdırma sisteminin yaradılması istiqamətində fəaliyyət göstərir. Ümumilikdə Milli Observatoriyanın fəaliyyəti əsasən bu platformalarda təşkil olunub: Monitorinq (müayinə, sorğu); Analitik və intellektual mərkəz ("Beyin mərkəzi"); Proqnoz, Tədqiqat və təkliflərin diskussiyası və dialoq platforması; Tədris və təlim mərkəzi.

E.Əsədov əmək bazarının cari və perspektiv vəziyyətinin qiymətləndirilməsinin, strateji məşğulluq sahələrinin, onların gələcək inkişaf meyillərinin müəyyən edilməsinin Milli Observatoriyanın əsas vəzifələri sırasında olduğunu deyib. Bildirib ki, Milli Observatoriyanın fəaliyyət istiqamətinə eləcə də iqtisadi fəal əhalinin, məşğulluğun və işsizliyin kəmiyyət tərkibinin, keyfiyyət göstəricilərinin müasir vəziyyətini, onların dəyişilməsinə təsir göstərən sosial-iqtisadi şəraitin təhlil edilməsi, bu əsasda cari və perspektiv proqnozların hazırlanması daxildir. Milli Observatoriya həmçinin iqtisadiyyatın rəqabətə davamlı kadrlarla təmin edilməsi üçün peşə və ixtisaslara, zəruri bacarıqlara və səriştələrə dair tələbləri müəyyənləşdirə bilər.

Qurumun hazırda üç layihə üzərində işlədiyini qeyd edən E.Əsədov, bu layihələrin məqsəd və əhəmiyyətini diqqətə çatdırıb.

Bildirilib ki, əliliyi olan şəxslərlə bağlı "Virtual İnnovasiyalar Parkı" adlanan layihə əsasında bu kateqoriyadan olan şəxslərin bərabər imkanlar əsasında məşğulluğu təmin olunacaq, əmək bazarına və sahibkarlıq fəaliyyətinə cəlb edilməsi həyata keçiriləcək.

Eşitmə və nitq məhdudiyyəti olan şəxslərin ünsiyyət probleminin aradan qaldırılmasına yardım edəcək proqram təminatı layihəsi və işarə dilinin rahat öyrənilməsi üçün Milli Observatoriya tərəfindən hazırlanan Telegram bot haqqında da məlumat verilib. Diqqətə çatdırılıb ki, layihənin tətbiq olunması həmin şəxslərin ətrafdakı insanlarla ünsiyyətini asanlaşdıracaq, onların cəmiyyətə inteqrasiyasına yardım edəcək.

Müayinə Sorğu Sistemi layihəsindən bəhs olunub. Qeyd edilib ki, bu layihə çərçivəsində müəyyən mövzular üzrə sorğuların aparılması, toplanmış məlumatların mobil tətbiq və ya veb səhifə üzərindən sistemə göndərilməsi, əldə edilmiş məlumatların təhlil edilməsi və hesabatların hazırlanması planlaşdırılır.

# Qarabağ atlarının füsunkar gözəlliyi, Azərbaycanın milli musiqisi və rəqsləri britaniyalıları heyran edib






Böyük Britaniyanın paytaxtı London şəhərində iyulun 1-4-də keçirilən ənənəvi "Royal Windsor Horse Show" - "Vindzor Kral Atçılıq Şousu" başa çatıb.



AZƏRTAC xəbər verir ki, Kraliça II Elizabetin və kral ailəsinin digər üzvlərinin canlı tamaşa etdikləri tədbirlərdə "Xarıbülbül" adlı xüsusi şou-kompozisiya hər gün təqdim olunub.

Vətən müharibəsində əldə olunmuş möhtəşəm Zəfərə və şəhidlərimizin müqəddəs xatirəsinə həsr olunmuş bu kompozisiyada Dövlət Sərhəd Xidmətinin süvarilər qrupunun Qarabağ atları üzərində nümayiş etdirdikləri igidlik və cəsurluq hərəkətləri, Azərbaycan milli geyimində arenaya çıxan "Sərhədçi" rəqs ansamblının möhtəşəm çıxışları, süvarilərimizin başları üzərində Azərbaycan və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırması, Azərbaycan milli rəqsi ilə atsürmə elementlərinin sintezi böyük rəğbətlə qarşılanmış, izləyicilərin qəlbində Qarabağ atlarının coşqusunu alovlandırıb.

Məşhur "Xudayar təsnifi"nin, Tofiq Quliyevin "Qaytağı"sının, Polad Bülbüloğlunun "Eşq və ölüm" baletinin müsiqisinin sədaları altında təmsilçilərimizin bənzərsiz çıxışları Azərbaycanın, o cümlədən də işğaldan azad olunmuş Qarabağın və ətraf rayonların böyük ekranlarda nümayiş etdirilən füsunkar görüntüləri ilə müşayiət olunub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə hazırlanmış bu proqramda xalqımızın zəngin mədəniyyəti, qəhrəmanlığı, cəsarəti və qorxmazlığı Qarabağ atlarının bənzərsiz gözəlliyi, milli musiqimizin və rəqslərimizin dili ilə ifadə olunub.

"Xarıbülbül" şou-kompozisiyasını xüsusi maraqla izləmiş Birləşmiş Krallığın Kraliçası Ülyahəzrət II Elizabet nümayəndə heyətimizlə görüşüb, xatirə fotosu çəkdirib, Azərbaycan təmsilçilərinin çıxışını möhtəşəm adlandırıb, bu çıxışlardan hər zaman məmnun qaldığını bildirərək Azərbaycan nümayəndələrinin gələcək atçılıq tədbirlərinə də qatılacaqlarına ümidvar olduğunu vurğulayıb.

Bu beynəlxalq atçılıq tədbirinin artıq ayrılmaz hissəsi sayılan Azərbaycan musiqisi, milli rəqslərimiz və xüsusilə də milli at cinsimiz olan Qarabağ atlarının valehedici performansı hər zaman olduğu kimi, Böyük Britaniya aristokratiyasının və məşhurlarının da marağına səbəb olmuş, keçirdikləri pozitiv həyəcan hisslərinə görə Azərbaycan nümayəndə heyətinə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan nümayəndələrinin çıxışları canlı yayımda nümayiş etdirilib, atçılıq həvəskarı olan sosial şəbəkə istifadəçilərinin və ixtisaslaşmış informasiya resurslarının mövzusuna çevrilib. Süvarilərimizin müxtəlif ekstremal hərəkətləri, xüsusilə tədbirin baş qəhrəmanları olan Qarabağ atlarının məharətli çıxışları Böyük Britaniyanın nüfuzlu saytları tərəfindən geniş işıqlandırılıb, heyətimizin təqdim etdiyi proqramı möhtəşəm və heyranedici adlandırıblar.

Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfərin carçısı kimi mədəniyyət paytaxtımız Şuşadan birbaşa Londona gələrək Azərbaycanın qədimliyini, özünəməxsus gözəlliyini və Qarabağın əsarətdən azad olmasını tərənnüm edən Qarabağ atlarının Böyük Britaniya atçılığının ən mötəbər tədbirinin əsas hissəsi kimi təqdim edilməsi izləyicilər tərəfindən böyük heyranlıqla qarşılanıb.

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarının icrası üzrə milli at cinslərimizin dünyada daha da məşhurlaşdırılması istiqamətində həyata keçirilən böyük miqyaslı, ardıcıl və məqsədyönlü tədbirlərin davamı olub, Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında mədəni əlaqələrin inkişafına öz töhfəsini verib.

Xatırladaq ki, Böyük Britaniya Kraliçası II Elizabetin şərəfinə hər il təşkil edilən bu tədbirdə Azərbaycan təmsilçilərinin iştirakı Prezident İlham Əliyevin ali diqqəti sayəsində mümkün olub.





# İngilislərdən tarixi rekord



"Avro-2020"nin 1/4 finalında Ukraynaya 4 cavabsız qolla qalib gələn İngiltərə millisi rekorda imza atıb. Belə ki, britaniyalılar tarixində ilk dəfə Avropa çempionatının 5 oyununun heç birində qapısından top buraxmayıb. Komanda həmçinin ardıcıl 7 matçda (662 dəqiqə) qapısını toxunulmaz saxlayıb.

Qeyd edək ki, qrup mərhələsində Xorvatiya və Çexiyaya eyni hesabla (1:0) qalib gələn İngiltərə millisi Şotlandiya ilə qolsuz heç-heçə edib. 1/8 finalda Almaniyanı 2:0 hesabı ilə üstələyən Qaret Sautqeytin komandası 1/4 finalda Ukrayna yığmasını 4:0 məğlub edib. Sabah İngilislər yarımfinalda Danimarka ilə üz-üzə gələcək.

## "Avro-2020"nin təqvimi

**YARIMFİNAL**

**06 iyul**
23:00. İtaliya - İspaniya
**London. "Uembli" stadionu**

**07 iyul**
23:00. İngiltərə-Danimarka
**London. "Uembli" stadionu**

## "Oyunçular göz yaşlarına hakim ola bilmədilər"



Çexiya millisinin baş məşqçisi Yaroslav Şilqavı "Avro-2020"nin 1/4 finalında Bakıda Danimarkaya 1:2 hesabı ilə uduzduqları oyun haqqında danışıb.

60 yaşlı mütəxəssis bildirib: "Biz məyusuq. Bəzi oyunçular göz yaşlarına hakim ola bilmədi. Mən öz komandamla qürur duyuram. Fikrimcə, azarkeşlər bizim çıxışımızdan razı qalıblar. Sonadək mübarizə apardıq. Rəqibin bu gün ilk qolu erkən vurması bizə təsir etdi. Hər qoldan sonra məyus olduq. Nəticəni dəyişə bilmədik. Matç başqa cür ola bilərdi. Bütün oyunçulara təşəkkür edirəm".

## Sautqeyt hədəflərini açıqladı

"Biz onsuz da çoxsaylı çətinliklə üzləşdik, maneəni aşdıq. Lakin oyunçuların bunları qəbul etdiyini bilirəm". Bu sözləri İngiltərə millisinin baş məşqçisi Qaret Sautqeyt deyib.

O, "Avro-2020"nin yarımfinalında Danimarka ilə keçirəcəkləri matçdan danışıb: "Yarımfinalda dayansaq, tam razı qalmayacağıq. 2018-ci ildəki dünya kubokunun yarımfinalından sonra uzun bir yol qət etdik. İndi biz bu uğuru təkrarladıq. Ancaq bu, komandanı qane etməməlidir. Növbəti addımı atmağa hazırıq. Oyunçular bu şansı qazandıqlarına görə xoşbəxtdirlər. Əlbəttə ki, bəzi matçlar çox çətin keçir. Amma oyunçularımız yarımfinala hazır olacaqlar. Heyətimizdə kubok alan futbolçularımız var. Onlar bunun necə bir hiss olduğunu bilirlər. Bu, onlara daha çox inam qazandıracaq".

## İspaniyada zədə şoku

İspaniya millisinin futbolçusu Pablo Sarabiya "Avro-2020"nin yarımfinalında İtaliya ilə oyunu buraxa bilər. 29 yaşlı yarımmüdafiəçi 1/4 finalda İsveçrə ilə matçın ilk hissəsində zədələnib. O, fasiləyə kimi zədəli halda oynayıb və daha sonra əvəzlənməyi istəyib. Zədə səbəbindən futbolçunun bu gün İtaliya ilə görüşdə meydanda olmaya biləcəyi vurğulanıb.

## İtaliya-İspaniya matçı almaniyalı hakimə tapşırıldı



"Avro-2020"nin yarımfinalında keçiriləcək İtaliya - İspaniya matçının hakimləri açıqlanıb. Matçı Almaniyadan olan hakimlər briqadası idarə edəcək.

Oyunun baş hakimi Feliks Brıx olacaq. Ona yan xətt hakimləri Mark Borş və Ştefan Lupp kömək edəcəklər. Dördüncü hakim funksiyasını rusiyalı Sergey Karasyov yerinə yetirəcək.

Qeyd edək ki, bu gün Londondakı "Uembli" stadionunda keçiriləcək İtaliya - İspaniya matçı Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

## Fransanın uğursuz çıxışının pərdəarxası səbəbləri

Fransa millisinin "Avro-2020"dəki uğursuz çıxışının pərdəarxası səbəbləri müəyyənləşib. "Equipe" nəşrinin yazdığına görə, bütün problemlər komandanın hücumçularından qaynaqlanıb.

Birinci amil kimi Antuan Qrizmannla Kilian Mbappe arasında yaşanan gərginlik göstərilib. Bildirilib ki, Qrizmannın komanda daxilində hörməti və liderlik xüsusiyyəti Mbappeni qısqandırır. Məhz bu üzdən gənc forvard oyunlar zamanı komanda yoldaşını kölgədə saxlamaq üçün fərdi oynamağa çalışıb.

Digər səbəb isə Kərim Benzemanın 6 ildən sonra milliyə qaytarılmasıdır. Sən demə, "Real"ın forvardının komandaya çağırılması baş məşqçi Didye Deşamın planında olmayıb. Lakin Fransa Prezidenti Emmanuel Makronun tələbi çalışdırıcını buna məcbur edib və Deşam sonanda qərarını və oyun sistemini dəyişməli olub.

Qeyd edək ki, Fransa millisi 1/8 final mərhələsində İsveçrəyə oyunsonrası penaltilərlə məğlub olaraq "Avro-2020" ilə vidalaşıb.







# Mədəniyyət





● Teatr xadimləri

**O, xanzadə nəslindəndir. Ata babası, çar zabiti, polkovnik Süleyman xan, Şəki xanı Səlim xanın oğlu, sonuncu Şəki xanı Hüseyn xanın qardaşı idi. Atası Həbib xan həm də Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi idi. Çar Rusiyası zamanında Zəngəzur qəzasının Dığ nahiyəsində polis pristavı işləyib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzasının rəisi olub. Zəngəzurun Akara, Muradxanlı, Novruzlar kəndləri Həbib xan Şəkinskiyə məxsus idi.**



## Azərbaycan səhnəsinin Cülyettası

Həbib xan bəy nəslindən olan Ağca xanımla evlənib. Ağca xanımın anası Gövhər xanım Əbdürrəhim bəy Haqverdiyevin əmisi qızı idi. Ailə həyatlarının ilk illərində övlad sarıdan üzləri gülməyib. Bir-birinin ardınca üç uşağın ölü doğulmasında Həbib xanın anası Ziba bəyim gəlinini günahlandırıb. Odur ki, Ağca xanımın yenidən hamilə olduğu xəbərinə sevinmək əvəzinə qəzəblənib. Oğluna: “Arvadını apar ölü uşağını atasının evində doğsun” deyib. Şuşanın adlı-sanlı bəy ailəsindən olan, hökmlü Ziba bəyimin sözü yerə düşməyib. Ağca xanım atası evinə getməli olub. Gövhər xanım tədbirli davranaraq uşaq doğulanda Şuşanın ən məşhur mamaçasını və tanınmış həkim Kərim bəy Mehmandarovu bir neçə şahidlə çağırıb. Körpə 1915-ci il iyunun 7-də sağ-salamat dünyaya gəlib. Amma elə zəif olub ki, yaşamasını möcüzə sayıblar. Ona görə Ziba bəyimə bu şad xəbəri verməyə tələsməyiblər. Körpəyə ad da qoymayıblar. Həftələr bu minvalla keçib. İyirmi bir gün sonra körpə ilk dəfə ağlayıb. Heyrət və şadyanalıq bir-birinə qarışıb. Arxayınlaşıb Ziba bəyimə gözaydınlığı veriblər. Elə biliblər o da sevinəcək. Ziba bəyim isə dediyindən dönməyib: “Ağca diri uşaq doğa bilməz” söyləyib, gəlinini də, nəvəsini də qəbul etmək istəməyib. Ancaq həmin gün körpənin dünyaya əsl gəliş gününə çevrilib. Təvəllüd tarixi o vaxt - 1915-ci il 28 iyun yazılıb. İyirmi bir gün adsız qalan qıza ad seçiblər. Sonralar bütün Azərbaycanda məşhur olacaq, adını teatr və kino tariximizə yazdıracaq o körpə Barat Şəkinskaya idi...

Gəlininə haqsızlıq edən Ziba bəyimdən üz döndərənlərdən biri də oğlu olub. Həbib xan baş götürüb Rusiyaya gedib. Orada çalışıb, zabit kimi yüksək rütbələr alıb. Denikinin ordusunda vuruşub. Bir müddət sonra geri dönüb. Balaca Barat da atalı-analı gözəl günlərini yaşamağa başlayıb.

Barat Şəkinskaya ilk təhsilini Şuşada alıb. 1920-ci ildə bu şəhərdə göstərilən “Şəbih” tamaşasında Səkinənin rolunu ifa edib.

1920-ci il 28 Aprel işğalından sonra Azərbaycanın qabacıl övladlarının çoxu vətənindən didərgin düşüb. Həbib xan da iki kiçik qızını və hamilə həyat yoldaşını qayınanasına tapşırıb. Sovet hökumətinin təqiblərindən qaçan Həbib xanın fikri fürsət tapan kimi ailəsini də öz yanına aparmaq olub. Dəfələrlə onların dalınca adam göndərsə də, məqsədinə çatmayıb. Əlac ona qalıb ki, yalandan xəbər yaysınlar ki, Həbib xan qətlə yetirilib. Plana görə Həbib xanın adamları onun ailəsini Arazdan İrana keçirməliydi. Səfərə hazırlaşan Ağca xanım evdəki qiymətli əşyaları satıb qızıl-gümüş alır. O, qızları Barat və Səriyyə, yeni doğulmuş oğlu Süleymanla birlikdə faytonla Ağdamın Göytəpə kəndində yaşayan bacısı Kübra xanımın yanına yollanır. Kübra xanım Zülfüqar Mirzəcamalovun həyat yoldaşı idi. Ağca xanım uşaqlarla kəndə çatanda eşidiblər ki, Mirzəcamalov qardaşlarını bolşeviklər güllələyib.

Onlar faytonla Həbib xanın adamlarının gözlədikləri yerə yetişmək üçün yola çıxıblar. Mənzil başına çatmamış quldurlar qarşılarını kəsib, onları qarət ediblər. Barat xanımgil kor-peşman Göytəpəyə dönüblər. Anası digər bacısının - Gəncədə yaşayan, Gəncəbasar bölgəsinin məşhur nəsillərindən - Səfikürdskilərdən olan Cəfər bəyin həyat yoldaşı Rəxşəndə xanıma xəbər göndərib. Rəxşəndə xanım öz adamlarını yollayıb onları Gəncəyə apartdırıb. 1923-cü ildən Barat xanım anası, bacıqardaşı ilə birlikdə bu şəhərdə yaşayıb. Həmin il sentyabrın 1-də Gəncədəki 2 saylı birinci dərəcəli qız məktəbində oxumağa başlayıb. 1927-ci ildə Gəncədə pedaqoji məktəbə qəbul olub. Tələbəlik illərində məktəbin və şəhərin müxtəlif dram dərnəklərində həvəskar aktrisa kimi çıxış edib. 1929-cu il sentyabrın 18-də Gəncə Həmkarlar İttifaqının “Fəhlə klubu”nda aktrisa kimi işə götürülüb. 1930-cu il 25 iyunda Pedaqoji məktəbi bitirib. Sərkər kənd məktəbinə müəllim göndərilib. Pedaqoji fəaliyyəti aktrisalıq arzusunu unutdura bilməyib. Müəllim işlədiyi vaxtlarda da “Qadınlar klubu”nun, “İşçi klubu”nun və “Dəmiryolçular klubu”nun dram dərnəklərində həvəskar aktrisa kimi fəaliyyətini davam etdirib.

Gəncədə tanınmış həvəskar aktyor və rejissor, “Fəhlə klubu”nun direktoru Mir İbrahim Həmzəyev həmin vaxtlar ona dəlicəsinə vurulub. Mir İbrahim Həmzəyev bir dəfə evlənib ayrılmışdı, qızı var idi. Barat xanım da onu sevib. Amma Ağca xanım qızının artistlə ailə qurmasına qarşı çıxıb. Ancaq on altı yaşlı Barat xanım onun sözünə baxmayıb. 1931-ci ilin iyulunda Barat xanım Mir İbrahim Həmzəyevlə ailə qurub. 1932-ci ilin mayın 3-də onların övladı dünyaya gəlib. Körpəyə “Od gəlini”nin qəhrəmanı Solmazın şərəfinə bu adı veriblər.

Barat xanımın birinci evliliyi iki il çəkib. Gənc ailə Mir İbrahim Həmzəyevin xəyanəti ucbatından dağılıb. Çox peşman olsa da, Barat xanım onu bağışlamayıb. Hələ on səkkiz yaşı tamam olmamış Barat Şəkinskaya Mir İbrahim Həmzəyevdən boşanıb. Onunla qarşılaşmamaq üçün 1935-ci il fevralın 23-də Lavrenti Beriya adına Gəncə Dövlət Dram Teatrından işdən çıxıb. Qızı Solmazı anasına tapşırıb tibb təhsili almaq məqsədilə Bakıya gəlib.

O, Bakıda bir gün yolda vaxtilə eyni dərnəkdə çalışdığı, Akademik Milli Dram Teatrının rejissoru vəzifəsində işləyən Adil İsgəndərovu görüb. O, Barat xanımı rejissor kimi ilk debütü olan “Polad qartal” tamaşasında uşaq roluna dəvət edib. Barat Şəkinskaya Şəfiqə rolu ilə səhnəyə çıxıb. 1935-ci il sentyabrın 1-də Akademik Milli Dram Teatrının (o zaman teatr Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı) aktyor truppasına qəbul olunub.

Bakıda çox tez məşhurlaşıb. Aktrisa 1936-cı il avqustun 8-də teatrda rejissor işləyən Şəmsi Bədəlbəyli ilə ailə qurub. Bu nikahdan qızı Rövşanə Bədəlbəyli dünyaya gəlib. Bu evlilik də yeddi il davam edib. 1943-cü il martın 12-də Barat Şəkinskaya Şəmsi bəydən ayrılıb.

Artıq şöhrətlənmiş, Əməkdar artist adına layiq görülmüş Barat Şəkinskaya yenidən Gəncəyə qayıdıb. Gəncə Dövlət Dram Teatrında mehribanlıqla qarşılanıb. Teatrın baş rejissor Mehdi Məmmədov ona xüsusi qayğı göstərib. Münasibətləri tədricən sevgiyə çevrilib. 1944-cü il noyabrın 16-da Barat xanım özündən üç yaş kiçik Mehdi Məmmədovla ailə həyatı qurub.

Gəncədən gələn aktrisanın gözə dəyməməsi Mircəfər Bağırovu da maraqlandırıb. Adil İsgəndərova tapşırıb ki, Barat Şəkinskayanı “Azdrama”ya geri qaytarsın. Adil İsgəndərov zəng vurub Barat xanımla danışıb. Aktrisa Bakıya dönməsinin artıq mümkünsüzlüyünü, Gəncədə ailə qurduğunu, həyat yoldaşının isə teatrın baş rejissoru olduğunu söyləyib. Adil İsgəndərov bu barədə Mircəfər Bağırova məlumat verib. Mircəfər Bağırov: “Ərini də götürsün, gəlsin bura” deyib.

Həmin vaxtlar Mehdi Məmmədov yalnız Gəncədə deyil, Bakıda da istedadlı rejissor kimi tanınırdı. 1944-cü ilin dekabrında Bakıya köçüb teatrda işə başlayırlar. Öz evləri olmadığından Mehdi Məmmədovun ailəsi ilə birgə qalıblar. Sonra hökumət onlara ev verib. 1946-cı il mayın 29-da dünyaya gələn, Elçin adlandırdıqları oğulları da onlar kimi məşhur olub. Elçin Məmmədov Əməkdar incəsənət xadimi, fırça ustası, teatr rəssamı və kino aktyoru kimi tanınıb. Amma Elçin də bacıları kimi atalı-analı uşaqlıq keçirməyib. Çünki o, hələ balaca ikən valideynləri boşanıb.

Mehdi Məmmədovla yeddi il sürən evlilikləri dağıldıqdan sonra Barat Şəkinskaya bir daha ailə qurmayıb.

Aktrisanın səhnə yaradıcılığı çox zəngin olub. O, “Göy quş” (Tiltil), “Kral Lir” (Kardeliya), “Romeo va Cülyetta” (Cülyetta), “Otello” (Dezdemona), “On ikinci gecə” (Viola), “Polad qartal” (Şəfiqə), “Məkr və məhəbbət” (Luiza), “Mehmanxana sahibəsi” (Mirandalina), “Rəqs müəllimi” (Florela), “Günahsız müqəssirlər” (Kruçinina) və başqa tamaşalarda əsas rolları ifa edib. Səhnədə həyat verdiyi bütün rollar ona tamaşaçı diqqəti və sevgisi qazandırsa da, Barat Şəkinskaya “Azərbaycan səhnəsinin Cülyettası” deyə çağırılıb.

Sənət taleyi ona yüksək mükafatlar qazandırıb. Barat Şəkinskaya 1940-cı il mayın 4-də, iyirmi dörd yaşında Əməkdar artist, 1949-cu il 21 iyulda isə Xalq artisti fəxri adlarına layiq görülüb.

Sənətində onu hər zaman yüksəklərdə tutan həyat Barat Şəkinskayanı dönə-dönə imtahana da çəkib. Ömrün qayğısız çağları sayılan uşaqlıq illəri Barat xanım üçün çətin keçib. Bu dünyanın ilk acısını atasının gedişi ilə yaşayıb. Beş yaşından sonra onu görməyib. İllər sonra Türkiyəyə səfəri zamanı Barat Şəkinskaya öyrənib ki, atası bu ölkədə də yaşayıb və bir daha evlənməyib, 1955-ci ildə dünyasını dəyişib.

Ömrünün sonlarına yaxın üzləşdiyi faciə isə fotoqrafın səhvi ucbatından baş verib. Kollektiv foto çəkilişi zamanı naşı fotoqraf civəli lampanın işığını elə salıb ki, bir neçə nəfərin sağlamlığına ziyan dəyib. Barat xanım bir gözünü itirib. Cərrahiyyə əməliyyatından keçib süni göz saldırmalı olub. Amma o, yenə ah-zar etməyib.

Çox gənc yaşlarından bağlandığı sənətə böyük ehtiramı olan Barat Şəkinskaya elə bu məhəbbət üzündən də səhnəni tərk edib. Yaşlandığını hiss edən aktrisa səhnədən uzaqlaşmaq qərarını verib. O, 1999-cu il yanvarın 14-də səksən dörd yaşında dünyasını dəyişib. Bakıdakı II Fəxri xiyabanda dəfn olunub.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

● Yeni nəşrlər

## Zamanın soldurmadığı portretlər kitabı

**Bu günlərdə işıq üzü görən “Portret” Rəhilə Gülgünün sayca beşinci kitabıdır. Müəllifin “65 yaşımın astanasında 45 illik yazar əməyinin bəhrəsi” kimi təqdim etdiyi yeni nəşrdə müxtəlif mövzu və fərqli janrlarda qələmə alınmış sənədli ədəbi-publisistik yazıları toplanıb. “Portret”ə ön söz əvəzində müəllif yazıb: “Kitabı tərtib edərkən onlarca məqaləni qırağa qoymuşam. Yalnız o publisistik örnəkləri seçmişəm ki, məncə, onları zaman soldurmayıb, düşüncələr, təsvir olunan epizodlar təsir gücünü itirməyib və ən əsası onların humanist və mərhəmətli məzmununun kiməsə dayaq olacağına inanıram”.**




Hekayə, etüd, povest, söhbət kimi səciyyələndirilən əsərləri birləşdirən başlıca cəhət həyatı faktla bədii ifadənin birləşməsindən yaranan ovqatdır. Yeni nəşrdə qeyd olunduğu kimi, həcmindən asılı olmayaraq, kitabdakı hər bir nümunəyə ölçüsünə görə fərqlənən portret kimi baxıla bilər.

Yeni nəşrin birinci bölümündə müəllifin “Dağlar sənə bir şans versə...”, “Meşə sükutunu xoşbəxtlik pozur...”, “Salahlı Bayram kişi”, “Bərdəli Yusif kişi”, “Beş fraqment”, “Kür qırağının adamları”, “Yuxu”, “Anam hey...” və digər portret etüdlərinə yer verilib. “Yadındadı?”, “Təzə ürək ilə oxuyan Alim”, “Dosent Qarayev”, “Göy üzünün bir damlası”, “Çörək kəsdik, qardaş olduq”, “Dünya gözəl bir saraydır”, “Əsgərə məktub” və başqa hekayələr kitabın ikinci bölümünə daxil edilib. Kitabın üçüncü bölümündə Rəhilə Gülgünün “Gün işığı kimi”, “Xəbərin rəngi”, “Göylər adamı” və “Ömür hekayəti” adlı portert povestləri verilib. Dördüncü bölümdə isə müəllifin müxtəlif portret söhbətləri təqdim olunub.

“Portret”ə “Pillə-pillə ucalırdı” adlı son söz əvəzini Zemfira Məhərrəmli yazıb. O, Rəhilə Gülgünün həyat və yaradıcılığı barədə məlumatlar verib. “Portret”in müəllifinin jurnalist peşəsinə sevgisindən və məsuliyyət hissi ilə yanaşmasından söz açıb. Həcmindən, mövzusundan asılı olmayaraq hər bir oxunaqlı əsər müəllifin istedadının və gərgin əməyinin bəhrəsidir. Zemfira Məhərrəmli Rəhilə Gülgün barədə bildirib: “Rəhilə Gülgünün sözsənət sərraflarına, tanınmış ədəbiyyat və incəsənət xadimlərinə həsr etdiyi, müxtəlif illərdə qələmə aldığı kitablar maraqla oxunur. Milli mədəniyyətimizin tarixində, jurnalistikamızda özünəməxsusluğu, xeyirxah əməlləri ilə dərin iz buraxmış ustad jurnalist Nəsir İmanquliyevin yaradıcılıq yolu barədə tədqiqatlarının nəticəsi olaraq yazdığı “Xəbərin rəngi” kitabı istedadlı qələm sahibinə rəğbət qazandırdı. Bu kitab ustad sənətkarla bağlı yazılmış ən etibarlı qaynaqlardan biridir. ...Rəhilə Gülgün az sonra yazıçı, pedaqoq, alim Mir Cəlal Paşayevin həyat və yaradıcılığı haqqında “Göylər adamı” kitabını və tanınmış psixoloq Elmira Mirzəyevanın bir alim kimi portret cizgilərini əks etdirən “Zərifliyin gücü və “Həyat hekayəsi”ni qələmə almışdır”.

***Z.FƏRƏCOVA,***
***“Azərbaycan”***

## “Türk dünyasının göy qurşağı” kitabı işıq üzü gördü

**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda təşkilat tərəfindən çap olunan türkdilli xalqların nağıllarından ibarət “Türk dünyasının göy qurşağı” adlı kitabın təqdimat mərasimi keçirilib.**



Kitaba fonda üzv və müşahidəçi dövlətlərin, o cümlədən Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Macarıstanın, eləcə də Özbəkistan və Türkmənistanın bir-birindən maraqlı və rəngarəng nağılları daxildir.

Tədbirdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bildirib ki, “Türk dünyasının göy qurşağı” kitabının adı təsadüfi seçilməyib. Çünki hər bir türk nağılı göy qurşağı rəngləri kimi əlvandır. Birlikdə bu rənglər türk dünyasının zəngin mədəni irsini ifadə edir. Kitab, sadəcə, nağıllar kitabı deyil, eyni zamanda, bizim türk dəyərlərimizdir. Çünki hər bir nağılda mərhəmətə, barışa, qarşılıqlı hörmətə, birliyə çağırış səslənir. Digər tərəfdən bu türk dünyasının adət-ənənələridir, çünki hər bir nağılda dədə-babalarımızdan, əjdadlarımızdan qalan adət-ənənələrimiz var. Kitabın özəlliyi həm də ondan ibarətdir ki, hər bir nağılı balaca azərbaycanlı rəssam Məryəm Quluzadənin illüstrasiyaları bəzəyir”.

***“Azərbaycan”***

● Tarixin yadigarları

**Respublikamızın zəngin tarixi sərvətlərlə dolu olan bölgələrindən biri də paytaxt Bakının yerləşdiyi, Xəzərətrafı Abşeron yarımadasıdır. Burada Bakı, Sumqayıt və Xırdalan şəhərləri ilə yanaşı, 32 qəsəbə də yerləşir.**

## Abşeronun beş min yaşı olan kəndi

### “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunda olan abidələr yüzilliklərdən soraq verir




Respublika ərazisinin təqribən 7 faizini əhatə edən, “şoran” və “su” sözlərindən yaranan Abşeron tarixi qədim yaşayış məntəqələri ilə də tanınır. Abşeronun hər bir kəndinin özünəməxsus tarixi keçmişi, təsərrüfat-məişət həyatı, qiymətli memarlıq abidələri olub. Qədim tarixi keçmişi olan belə yaşayış məntəqələrindən biri də Qala kəndidir. Coğrafi mövqeyinə görə, Qala Abşeron yarımadasının şimal-şərqində yerləşir. Kənddə olan memarlıq abidələrinin yaranma tarixi XII-XIII əsrlərə gedib çıxır. Həmin dövrə aid olan Qala divarları bugünədək qalmaqdadır. Belə tikililər göstərir ki, Qala hələ qədim zamanlarda da mədəni-ticarət mərkəzi olub. 1873-cü ildə Qalada 431 həyət, 2331 nəfər əhali yaşayıb. Kənd karvan yolu üzərində yerləşib. Qalalıların əsas məşğuliyyəti əkinçilik və maldarlıq imiş. Yerli əhali Qalanı vaxtilə “Taxıl kəndi” adlandırıb. Çünki Qalada taxılçılıq daha çox inkişaf edib. Kənddə bağçılığa da xüsusi diqqət yetirilib.

### Bir kəndin 228 memarlıq və arxeoloji abidəsi var

Qalanın tarixi çox acınacaqlı olub. XIX əsrdə bu yerlərdə neft çıxarılmağa başlanıb ki, bu da əkinçilik və maldarlıq yerlərinin azalmasına gətirib çıxarıb. Qalada onlarca misgər, dulusçu, dərzi, dəmirçi emalatxanaları, silahsaz, örkəntoxuyan (kişilər), boyaqçılar, xalçaçılar da var idi.

Qala kəndi Orta əsrlərdə bir sıra məhəllələri ilə də məşhur imiş. Hər məhəllədə isə ictimai mərkəz kimi, məscidin qarşısında kiçik meydança olub. Qalanın daha bir özünəməxsusluğu burada binaların küləyin istiqaməti nəzərə alınmaqla inşa edilməsidir. Bundan başqa, Qalada xalqımızın tarixini yaşadan etnoqrafiya qoruğunun olması da maraqlı faktlardandır. Burada, sözün həqiqi mənasında tarixi dünənimiz yaşadılır, canlandırılır. Söhbət Nazirlər Kabinetinin 18 aprel 1988-ci il tarixli qərarı ilə fəaliyyət göstərən “Qala” Dövlət Tarix-Enoqrafiya Qoruğundan gedir. Qoruq Qala qəsəbəsinin tarixi hissəsində yaradılıb. Ərazisi 8,5 hektar olan qoruqda ən qədim abidə e.ə. III minilliyə aid olan yaşayış məskənidir. Kənddəki memarlıq abidələri arasında 5 məscidin, 3 hamamın, yeraltı kəhrizlərin, 4 ovdanın, qəsrin qalıqlarının, məqbərə, sərdabələr və yaşayış evlərinin mövcudluğu göstərir ki, bura, əslində, açıq hava altında tarixdiyarşünaslıq muzeyidir.

“Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunun direktor müavini, Əməkdar mədəniyyət işçisi Nahidə Bəkirova bildirir ki, xalqımızın milli və mədəni dəyərlərinin mühafizə edilməsi, bərpası, həmçinin onların təbliği sahəsində əhəmiyyəti böyükdür: “...Ona görə də Qala qəsəbəsinin tarixi hissəsində olan elmi, bədii əhəmiyyət daşıyan bütün tarix və mədəniyyət abidələri dövlət tərəfindən qorunur. Əslində, Qala vaxtilə kiçik şəhər olub. Əhalisinin böyük hissəsi kənd təsərrüfatı ilə məşğul olsa da, kəndin daxilində əkin sahələri yox imiş və bağ da salınmayıb. Bütün əkin sahələri kənddən kənarda olub. Ekspozisiyada “sədd daşı” deyilən kiçik bir daş da nümayiş edilir. Qədimdə ayrı-ayrı mülkədarlara və ya dövlətə aid torpaqların sərhədi bu cür daşla işarələnərək ayrılırdı”.

### Evin və elin “Elçi daşı”

Xalqın tarixi köklərini özündə əks etdirən daşlar indi muzeyləşmiş qoruqlarda özünü dünyaya tanıdır və mədəniyyətin təbliğində mühüm rol oynayır: “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunda daşla bağlı çox geniş material və məlumatlar var. Burada daşların həyatverici gücü bir daha təsdiqlənir, tarixən insan həyatındakı rolundan danışılır. “Qala” qoruğunun ərazisi beşminillik tarixi olan Qala kəndinin ən qədim hissəsində yerləşir. Son araşdırmalara görə, Qalada e.ə. III minillikdən XX əsrə qədər tarixi əhəmiyyət daşıyan 228 memarlıq və arxeoloji abidə - kurqan, dolmen, sərdabə, əmanət qəbir, türbə, məscid, ovdan, hamam və samanlıqlarla bərabər, yaşayış evləri də mövcuddur. Burada hər daş qədim Abşeron həyatının bir parçasıdır və hər daş öz tarixini danışır”.

Qala abidə kompleksində böyük sal daşlar diqqəti cəlb edir. Vaxtilə bu daşlara neçə-neçə insanlar söykənib, arxalanıb. Yolçular soyuqdan, küləkdən və günəşdən qorunmaq üçün bu daşların kölgəsində oturub dincəliblər.

Muzey kompleksində yerləşən, el arasında “elçi daşı” adlanan bir daş öz funksiyasına görə, turistlərin marağına səbəb olur. Yaxın zamanlara qədər hər bir evin qarşısında oturmaq üçün daş qoyardılar. Kim bu evə gələrdisə, o, daşın üstündə oturub ev sahibinin dəvətini gözləyərdi.

### Əsrlərdən qalan Qəsr-qala

Qalada zaman-zaman bir sıra sənət sahələri inkişaf etdirilib. Qala xalçaçıları, dəmirçiləri, dulusçuları, bənnaları, dülgərləri, silahsazları ilə də məşhur olub.

Qalanın qəbiristanlıq ərazisində, tikinti texnikası Şirvan-Abşeron memarlıq üslubuna xas olan iki türbə, müxtəlif vaxtlarda tikilmiş 5 məscid də var. Onlardan biri “Cümə məscidi”dir ki, Hacı Ramazan məhəlləsində yerləşir. Balaverdi məscidi Balaverdi məhəlləsinin ictimai-ibadət tikilisidir. İnşa tarixi 1864-cü ilə təsadüf edən məscidin Kərbəlayı Süleyman tərəfindən tikdirildiyini söyləyir.

“Göy günbəzli məscid” - Tərəkəmə məscidi kəndin şimal hissəsində yerləşən eyni adlı məhəllənin yeganə monumental tikilisidir. Məscid 1911-ci ildə Hacı Ağahüseyn və Məşədi Məmmədyarovlar tərəfindən tikdirilib...”

Kənddə “Şor hamamı”, “Qum hamamı”, “Bayraməli hamamı” da məşhur imiş. Onlardan yalnız biri bu günə qədər fəaliyyət göstərir. Həmin hamam çox vaxt “Cümə hamamı”, yaxud “Bayraməli hamamı” adlanırmış. Yaşına görə “Qum hamamı” daha qədimdir. Hamam XII-XIV əsr memarlıq quruluşuna malikdir. Torpağın altında yerləşdiyindən, “Qum hamamı” adlanıb. Onunla bağlı türk səyyahı Cəlal Əsəd yazırdı: “Hamamlar müsəlmanlar üçün məscidlər kimi lazımdır”.

Həmsöhbətimiz xüsusi olaraq vurğulayır ki, Arxeoloji Etnoqrafik Muzey Kompleksi Heydər Əliyev Fondunun təşəbbüsü və rəhbərliyi ilə Qala qoruğu ərazisində açıq səma altında yaradılıb: “Bu ərazidə e.ə. III-II minilliklərə aid kurqanlar, arxeoloji abidələr, həmin dövrə aid yaşayış məskənləri, Orta əsrlərdən soraq verən başqa memarlıq nümunələri ilkin görünüşündə qurulub.

Abidə kəndin ən qədim yaşayış ərazisində tikilib. 2009-cu ildə kəndin ətrafında başlayan arxeoloji qazıntılar zamanı qalanın X-XII əsrlərə aid olması sübut edilib. Bizim dövrümüzə yalnız qalanın bir hissəsi və divar qalıqları gəlib çatıb. 2011-ci ildə Qəsr-qala Heydər Əliyev Fondu tərəfindən yenidən bərpa olunub...”

### Mədəni irsimizin təbliği

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 2011-ci ildə mühəndis, bərpaçı, xeyriyyəçi, Qarabağ müharibəsi əlili, “Azərbaycan bayrağı” ordenli Şahid Həbibullayevin topladığı şəxsi kolleksiya əsasında yaradılıb. Burada həmin unikal toplunun yalnız 800 eksponatı nümayiş etdirilir.

Ekspozisiya şöbəsinin müdiri Turan Həsənova isə onu əlavə edir ki, 1988-ci ildən kəndin tarixi hissəsi Dövlət Tarix-Etnoqrafiya Qoruğu elan edilib: “...Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə qoruğun ərazisində yaradılan Arxeoloji-Etnoqrafik Muzey-Kompleksi isə mədəni irsimizi geniş təbliğ etməyə, ölkəmizi turizm mərkəzlərindən birinə çevirməyə xidmət edir. Görülmüş işlər nəticəsində muzey-kompleksində Azərbaycan xalqının mədəniyyətinin və məişətinin əsrlərboyu necə inkişaf etdiyini bir məkanda canlı izləmək imkanı yaradılıb.

Dövlət başçısının 22 dekabr 2011-ci il tarixli sərəncamı ilə yaradılan “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğu 2012-ci il yanvarın 1-dən Mədəniyyət və Turizm Nazirliyinin tabeliyindən çıxarılaraq, Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin tabeliyinə verilib.

Qısası, “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğu ölkəmizin çox əhəmiyyətli tarixi abidələrindən biridir. On-on dördüncü yüzilliyə aid qala qəsrini, qədim evləri, türbə və məscidləri, müxtəlif sənət nümunələrinin cəmləşdiyi Əntiq Əşyalar Muzeyini, qayaüstü təsvirləri və Arxeoloji-Etnoqrafik Muzeyi özündə birləşdirir”.

***Məhəmməd NƏRİMANOĞLU,***
***İlham BABAYEV (foto),***
***“Azərbaycan”***

# "Azercell"in Səyyar Diş və Göz Klinikaları əhaliyə təmənnasız xidmət göstərməyə davam edir

## 2021-ci ilin ikinci rübündə 400-dən çox xüsusi qayğıya ehtiyacı olan şəxs müayinə və müalicə olunub

"Azercell Telekom" MMC-nin Səyyar Diş və Göz Klinikaları son üç ayda bütün təhlükəsizlik və gigiyena qaydalarına riayət olunmaqla 400-dən çox aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan şəxsə xidmət göstərib.

Belə ki, "Azercell"in Səyyar Diş Klinikasında bu ilin ikinci rübü ərzində 166 nəfərə təmənnasız tibbi yardım göstərilib. Aprel ayında klinikanın həkimləri Suraxanı rayonunda şəhid, qazi və aztəminatlı ailələrin övladlarını (46 nəfər) müalicə və müayinə ediblər. May ayında Masazır qəsəbəsindəki 56 saylı Kəlbəcər tam orta məktəbinin 50-yə yaxın şagirdi müayinədən keçib. İyun ayında isə Gürgən qəsəbəsində xidmətdə olan klinikada 71 uşağın diş problemi aradan qaldırılıb. Ümumilikdə bu ilin ilk yarısında "Azercell"in Səyyar Diş Klinikasında 218 nəfər müalicə alıb.




Hesabat dövründə "Azercell"in Səyyar Göz Klinikası da öz növbəsində oftalmoloji problemləri olan şəxslərə yardımını əsirgəməyib. Son 3 ayda Azərbaycanın müxtəlif bölgələrinə səyahət edən klinikanın həkimləri 267 nəfərə kömək göstəriblər. Təkcə iyun ayında 120 xəstə (93 böyük, 27 uşaq) pulsuz müayinə və müalicə olunub. Onlar arasında şəhid və qazi ailələrinin üzvləri, aztəminatlı ailələrin uşaqları, uşaq və gənclər təşkilatlarının üzvləri də var.

2021-ci ilin əvvəlindən bu günədək klinikanın həkimləri tərəfindən göz problemi olan 372 nəfərə (230 böyük, 142 uşaq) yardım edilib. Bu müddət ərzində klinikanın heyəti Bakı ilə yanaşı, Sumqayıt, Pirallahı və Zirə qəsəbələri, Quba, Ucar, Kürdəmir, Siyəzən rayonları, Xudat şəhərində səyyar şəkildə xidmət göstərib.

Beləliklə, "Azercell"in Səyyar Klinikaları bu il ərzində ümumilikdə 600-ə yaxın şəxsə ödənişsiz tibbi xidmət təqdim edib. Qeyd edək ki, "Azercell Telekom" MMC-yə məxsus və 10 ildən çox müddətdə xüsusi qayğıya ehtiyacı olan əhaliyə təmənnasız xidmət edən səyyar klinikalar "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyinin dəstəyi ilə fəaliyyət göstərir.

# Bakı Şəhər Əsaslı Tikinti və Təmir MMC
## *açıq tender elan edir*

LOT - 1. Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Nizami adına Mədəniyyət və İstirahət Parkında abadlıq işlərinin görülməsinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (Əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05) ala bilərlər:

**LOT - 1. İştirak haqqı - 2000,00 manat**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT IBAZAZ2X**
**İştirak haqqı heç bir halda qeri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **11 avqust 2021-ci il saat 11:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **18 avqust 2021-ci il saat 18:00-a qədər** təqdim etməlidirlər. İddiaçıların təklifləri **19 avqust 2021-ci il saat 11:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Azərbaycan Dövlət Pedaqoji Universiteti" 2021-ci il üçün digər maşın və avadanlıqların satın alınması məqsədilə
## *açıq tender elan edir*

**LOT 1 - Digər maşın və avadanlıqlar**

İddiaçılara təklif edilir ki, dövlət satınalmalarının vahid internet portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumat əldə etsinlər. eTenderdə iştirak etmək istəyən iddiaçılar müəyyən edilmiş məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**LOT 1 - 650 manat**
**Hesab: AZ92AIIB38090019441105141104**
**VÖEN:1700495231**
**Bank: Kapital Bank ASC Cəfər Cabbarlı filialı**
**Kodu: 200048**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**
**QEYD: İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
2. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
3. Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;
4. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
5. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi;
6. Qeydiyyatdan keçdiyi ölkə (reyestrdən çıxarış);
7. Bank rekvizitləri;
8. İddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı arayış.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 22 iyul 2021-ci il saat 16:30-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 31 iyul 2021-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər. İddiaçıların təklifləri 02 avqust 2021-ci il saat 14:00-da vahid satınalma Portalında açılacaqdır.

**QEYD:** *eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# BİLDİRİŞ

"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən Dəftərxana mallarının satın alınması üçün keçirilən açıq tenderdə "Antaris" QSC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

19 iyul iş günü ilə 17 iyul istirahət gününün yerlərinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 01 iyul tarixli 194 nömrəli Qərarı nəzərə alınaraq, Azərbaycan İnvestisiya Holdinqi üçün proqram təminatları və SSL sertifikatlarının satın alınması barədə 02 iyul 2021-ci il tarixdə elan edilmiş təkliflər sorğusu proseduru üzrə təkliflərin açılış tarixi 19 iyul tarixdən 17 iyul tarixə keçirilmişdir.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən Bakı şəhəri ərazisində dezinfeksiya işlərinin davam etdirilməsi məqsədilə tələb olunan dezinfeksiyaedici məhlulların alınması üçün 23 iyun 2021-ci il tarixdə elektron Portal vasitəsilə keçirilmiş olan açıq tender şəhər ərazisində aparılan dezinfeksiya işlərinin dayandırılması səbəbindən ləğv olunur.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2021-ci il üçün
## *kotirovka sorğusu elan edir*

Katriclərin doldurulması xidmətinin satın alınması.
Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 17 iyul 2021-ci il saat 12:00-dək qəbul olunur.
Tələb olunan sənədlər:
- Malgöndərənin (podratçının) kotirovka təklifi;
- Malların (işlərin və xidmətlərin) qiymət cədvəli;
- İddiaçının tam adı, ünvanı, hüquqi statusunu müəyyən edən sənəd, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;
- Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;
- Satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması;
- Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;
- Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;
- Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;
- İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.

**Ünvan: AZ1100, Bakı şəhəri, Yasamal rayonu, Nazim Hikmət küçəsi, 27.**
**Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə. Telefon: (+99451) 207-59-12.**

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Milli Antidopinq Agentliyi Publik Hüquqi Şəxsi tərəfindən elan edilən "Antidopinq sahəsinə aid sənədlərin tərcüməsi ilə birgə tibb, hüquq, əczaçılıq, ədəbi sənədlərin və digər materialların tərcümə işlərinin yerinə yetirilməsi xidmətlərinin satın alınması" məqsədilə elektron satınalma vasitəsilə keçirilən tender proseduru iştirak edən iddiaçı sayı 3-dən az olduğu üçün ləğv olunur.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Elçin Paşayevə anası
**RUBA TALIBOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının Qazax filialının müdiri Cümşüd Musayevə bacısı
**RƏHİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Tofiq İsmayılova atası
**KÖÇƏRİ İSMAYILOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov və bankın kollektivi Mərkəzi Bankın sədrinin müşaviri Əliyar Məmmədyarova anası
**LALƏZAR MƏMMƏDYAROVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi AHİK-in zəhmətkeşlərin əməyinin və sosial-iqtisadi mənafelərinin müdafiəsi üzrə şöbəsinin müdiri Çingiz Tağıyevə bacısı
**SƏİDƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Mühəndislik Universitetinin kollektivi universitetin rektoru, professor Havar Məmmədova bacısı
**MƏRYƏM XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Abid Şərifov və Əhməd Əhmədzadə Sevda Hüseynovaya atası
**HİDAYƏT MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Azərbaycan Dövlət Dəniz Akademiyasında mövcud olan Elektron Akademiyanın İdarəçilik strukturunun proqram təminatının illik texniki xidmətinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **adda.edu.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 iyul 2021-ci il saat 15:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, AZ1000 (indeks), Zərifə Əliyeva küç., 18, ADDA-nın əsas inzibati binası.**
**Əlaqə telefonu: (012) 404-39-47, daxili: 3042.**

***Tender komissiyası***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 3766
Sifariş 1215
Qiyməti 40 qəpik